Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü münasibətilə xalqımızı təbrik edirik!

iqtisadi qüdrətimiz naminə!

www.iqtisadiyyat.com

№ 41 (936)
14 - 20 oktyabr
2016-cı il

İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

Bizim dostluğumuz, birliyimiz, qardaşlığımız daimidir, əbədidir, sarsılmazdır

Oktyabrın 10-da Istanbulda 23-cü Dünya Enerji Konqresi işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqresin açılışında iştirak edib.

"Yeni üfüqlərə qucaq açmaq" devizi altında keçirilən 23-cü Dünya Enerji Konqresində Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin, Venesuela Prezidenti Nikolas Maduro Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xüsusi dəvəti əsasında iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev Konqresdə çıxış etmişdir. O, demişdir:

- Dünya Enerji Konqresinin Türkiyədə keçirilməsi çox əlamətdar hadisədir. Bu, Türkiyənin dünya enerji siyasətindəki rolunu göstərir və bu rol getdikcə artır. Türkiyə enerji təhlükəsizliyi məsələlərinin həllində çox önəmli addımlar atır. Türkiyənin inkişafı, sabitliyi nəinki Türkiyəni sevən ölkələrə, ona dost olan ölkələrə, bütün dünyaya lazımdır. Çünki Türkiyə bu gün dünyanın enerji siyasətinin müəyyən edilməsində çox önəmli rol oynayır.

Bu ilin iyulunda Türkiyə çətin bir sınaqdan şərəflə çıxdı. Türkiyə xalqı Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşərək, böyük qəhrəmanlıq göstərərək, çevriliş cəhdinin qarşısını aldı, dövlətçiliyi, Türkiyənin xoşbəxt bu gününü və gələcəyini qorudu. Biz Azərbaycanda sizinlə fəxr edirik.

Biz bir çox önəmli enerji layihələrimizi Türkiyə ilə bərabər icra edirik və bu enerji layihələri dünya üçün böyük əhəmiyyət daşıyır. Onu qeyd etməliyəm ki, dünyanın neft tarixi Bakıdan başlayır. XIX əsrin ortalarında dünyada ilk dəfə olaraq Bakıda sənaye üsulu ilə ilk neft çıxarıldı. Ondan yüz il sonra ilk dəfə dənizdə neft Azərbaycan neftçiləri tərəfindən çıxarılmışdır. Müstəqilliyimizin ilk illərində Azərbaycan ilk dəfə olaraq xarici neft şirkətlərini Xəzər dənizinə dəvət etmiş, "Əsrin kontraktı" imzalanmış, "Azəri-Çıraq-Günəşli" neft yataqları işə düşmüşdür. Bu yataqlar dünya miqyasında ən böyük neft qaynaqlarından biridir və beləliklə, ölkəmizin sürətli və uğurlu inkişafı başlamışdır.

Biz bu ay müstəqilliyimizin bərpasının 25-ci ildönümünü qeyd edəcəyik. Bizim müstəqil ölkəmizin inkişafında enerji sektoru xüsusi rol oynamışdır.

Azərbaycan açıq dənizlə dünya bazarlarına çıxışı olmayan ölkələrdən biridir. Buna görə mütləq boru xətləri çəkilməli idi. Bu gün bizim xam nefti dünya bazarlarına çıxarmaq üçün üç boru xəttimiz var – ikisi bizim neftimizi Qara dənizə, biri isə Aralıq dənizinə - Ceyhan limanına gətirir.

SƏH. 2

PAŞA Bank

Müstəqil respublikamızın bu gününü təbrik edirik.

Bayramınız mübarək olsun!

Oksigen zavodu istismara verildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də "Baku steel company" Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) oksigen zavodunun açılışında iştirak edib.

MMC-nin müşahidə şurasının sədri Rasim Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat vermiş, bildirmişdir ki, burada 2012-2013-cü illərdə əsaslı yenidənqurma işləri aparılıb. Cəmiyyətin inzibati binası da görülən işlər çərçivəsində müasir səviyyəyə çatdırılıb. Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, Ümummilli Liderin bu şirkətdə, Prezident İlham Əliyevin isə müxtəlif istehsal müəssisələrində olduqları vaxt çəkilən fotolarından ibarət stend yaradılıb. Şirkət 2001-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə açılıb.

Prezident İlham Əliyevə burada hazırda icra olunan üç yeni layihə barədə məlumat verildi. Yeni layihələrə ferroərintilərin və şixta materiallarının soba və soba-çalova verilməsini təmin edən müasir avtomatlaşdırılmış qurğunun, 9 metr radiusda olan üçşırnaqlı, tökmə sürəti dəqiqədə 5 metr olan fasiləsiz pəstahtökmə maşınının quraşdırılması, həmçinin illik məhsuldarlığı 550 min ton olan çeşidli yayma xəttinin yaradılması daxildir. Bu xətt istehsal prosesində itkiləri azaltmaq üçün pəstahların bir-birinə avtomatik qaynaq olunması qurğusu ilə təchiz edilib. Çeşidli yayma xəttində tökmə maşınından pəstahların isti şəkildə verilməsi də nəzərdə tutulub ki, bu da öz növbəsində enerjiyə qənaət etməyə imkan yaradır. "Baku steel company" MMC bu layihələri İtaliyanın "Danieli" şirkəti ilə reallaşdırır.

Sonra Prezident İlham Əliyev oksigen zavodunun açılışında iştirak etmişdir.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünün təntənəli qeyd edilməsi haqqında Sərəncam imzalayıb.
Sərəncama əsasən, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ölkədə dövlət səviyyəsində təntənəli surətdə qeyd olunacaq.

Bizim dostluğumuz, birliyimiz, qardaşlığımız daimidir, əbədidir, sarsılmazdır

(əvvəli 1-ci səhifədə)

İlk dəfə olaraq tarixdə biz Xəzər dənizini Aralıq dənizi ilə bağladıq və bu gün Azərbaycan nefti həm Türkiyəyə, Türkiyə ərazisindən isə dünya bazarlarına ixrac edilir. Bu, bizə çox böyük xeyir gətirir. Bakı-Tbilisi-Ceyhan boru xəttini əziz qardaşım, hörmətli Prezident Ərdoğanla birlikdə 2006-cı ildə açdığımız andan bu günə qədər ötən 10 il ərzində Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində və digər sahələrdə əlaqələr daha da möhkəmlənib. 2007-ci ildən sonra isə Azərbaycan tarixdə ilk dəfə olaraq təbii qazı ixrac etməyə başlamışdır. Bakını Ərzurumla birləşdirən boru xətti çəkildi və beləliklə, biz Türkiyəyə təbii qazın ixracına başladıq.

Azərbaycanda təsdiq edilmiş təbii qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Dünyanın ən böyük qaz yataqlarından biri - "Şahdəniz" Azərbaycanda yerləşir. Bütün bunları nəzərə alaraq mütləq böyük qaz xətti çəkilməli idi və müxtəlif şirkətlər, müxtəlif ölkələr bu istiqamətdə öz səylərini göstərirdilər. Ancaq bu səylərin heç bir nəticəsi olmamışdır. Yenə də Türkiyə ilə Azərbaycan bu istiqamətdə öz liderliyini göstərdi və 2012-ci ildə bu gözəl İstanbul şəhərimizdə əziz qardaşım Prezident Ərdoğanla birlikdə TANAP anlaşması imzalanmışdır.

TANAP anlaşması tarixi bir anlaşmadır. Bu, digər önəmli layihələrə təkan verdi. TANAP layihəsi "Cənub" qaz dəhlizinin tərkib hissəsidir. "Cənub" qaz dəhlizi bu gün dünya miqyasında ən böyük enerji layihələrindən biridir. "Cənub" qaz dəhlizinin sərmayə tutumu 45 milyard dollardır və dörd önəmli layihədən ibarətdir. Birincisi, TANAP-dır ki, bizim qazı Gürcüstan-Türkiyə-Yunanıstan sərhədinə çatdırır. Digəri Cənubi Qafqaz qaz kəməridir ki, Azərbaycan qazını Türkiyə sərhədinə gətirir. Üçüncüsü, Trans-Adriatik kəməridir və nəhayət dördüncüsü, "Şahdəniz" qaz yatağının ikinci fazasının işlənməsidir.

Bu gün "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Azərbaycan və Türkiyə bu layihənin icrasında liderlik keyfiyyətlərini göstərirlər və bu, enerji təhlükəsizliyi üçün çox önəmli bir layihədir.

Enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizlik məsələsidir. Bu gün ölkələr çalışırlar ki, öz təbii resurslarını müxtəlif yollarla dünya bazarlarına çıxarsınlar. Ancaq təbii qaynaqlarla zəngin olmayan ölkələr isə çalışırlar ki, onlara resurslar müxtəlif yerlərdən gətirilsin. Azərbaycan bu istiqamətdə də önəmli addımlar atmışdır və həm nefti, həm qazı şaxələndirilmiş yollarla dünya bazarlarına çıxarır.

"Cənub" qaz dəhlizinin icrasında artıq 7 ölkə birləşib və gələcəkdə daha bir neçə ölkə bu önəmli layihəyə qoşula bilər. Bu istiqamətdə apardığımız işlər bizim ölkəmizi gücləndirir. Çünki qeyd etdiyim kimi, biz cəmi 25 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. İqtisadiyyatımızın böyük hissəsi ilk illərdə neftlə, qazla bağlı idi. Bu gün isə biz neftdən və qazdan əldə etdiyimiz mənfəəti iqtisadiyyatımızın digər sektorlarına yatırmaqla ölkəmizin inkişafını dayanıqlı edirik. Bizim iqtisadiyyatımızda neft və qaz hazırda cəmi 30 faiz təşkil edir.

Enerji təhlükəsizliyi məsələləri gələcəkdə də öz həllini tapmalıdır. Təbii qaynaqlarla zəngin olan ölkələr, tranzit ölkələr, istehlakçı ölkələr burada bir komanda kimi fəaliyyət göstərməlidir, heç bir əsassız rəqabətə yol verilməməlidir, sağlam rəqabət aparılmalıdır. Neft-qaz hasil edən və ixrac edən ölkələr arasında daha çox anlaşma olmalıdır. Azərbaycan hər zaman bunun tərəfdarı olmuşdur ki, burada biz xalqlarımızın, ölkələrimizin maraqlarını təmin edə bilək. Bizim enerji siyasətimiz imkan verdi ki, biz özümüz də xarici ölkələrə sərmayə qoyaq. Müstəqilliyimizin ilk illərində xarici yatırımdan asılı idik. Bu gün biz başqa ölkələrə böyük həcmdə yatırımlar edirik, o cümlədən qardaş Türkiyəyə bizim yatırdığımız və yatıracağımız sərmayə 20 milyard dollara bərabərdir. Bu, bizim iqtisadiyyatımızı, Türkiyə iqtisadiyyatını gücləndirir. Bu, bizim birliyimizi gücləndirir.

Bu gün dünya enerji və enerji təhlükəsizliyi məsələlərini müzakirə edəndə Türkiyəni və Azərbaycanı nəzərə almamaq mümkün deyil. Çünki həm təbii ehtiyatlar, böyük coğrafiya, şaxələndirilmiş nəqliyyat infrastrukturu artıq bizdə var. Biz bunu yaratmışıq və biz öz işimizi bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı mənfəət və maraqlar əsasında qururuq.

Bu gün biz çox sevinirik ki, Türkiyə uğurla, inamla irəliyə gedir. Türkiyə "Böyük 20"-lərin üzvüdür. Türkiyə-Azərbaycan əlaqələrini bir faktla əsaslandırmaq üçün sadəcə olaraq onu deməliyəm ki, "Böyük 20"-lərin keçən il noyabr ayında Antalyadakı zirvə görüşündə Türkiyə bu kluba üzv olmayan bir ölkəni dəvət edə bilərdi və o, Azərbaycanı dəvət etdi. Buna görə bir daha sizə minnətdaram.

Mən dördüncü dəfədir ki, bu il Türkiyəyə səfər edirəm və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan da Azərbaycana səfərlər edir. Bizim dostluğumuz, birliyimiz, qardaşlığımız daimidir, əbədidir, sarsılmazdır. Sağ olun.

* * *

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər.

İstanbul Konqresi işini oktyabrın 13-də başa çatdırmışdır.

Railway.gov.az

"Azərbaycan Dəmir Yolları"
Qapalı Səhmdar Cəmiyyəti

Müstəqillik o deməkdir ki, ölkə tam şəkildə müstəqil siyasət apara bilsin.Ölkələr var ki, müəyyən səbəblərə görə müstəqil siyasət aparmaq iqtidarında deyildir, haradasa imkanları yoxdur, haradasa tədbirlər görməyibdir. Azərbaycan bu baxımdan ayaq üstə dayanan ölkədir. Bizim vəzifəmiz və borcumuz - bütün Azərbaycan xalqının borcu ondan ibarətdir ki, bu müsbət meyilləri daha da möhkəmləndirək.

İlham Əliyev

Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açmışdır. O, demişdir:

- 2016-cı il dünya iqtisadiyyatı üçün çox ağır il olmuşdur. Tarixdə bəlkə də ən ağır illərdən biridir. Dünya iqtisadiy-yatında böhranlı vəziyyət davam edir. Bu böhrandan həm təbii resurslarla zəngin olan ölkələr, eyni zamanda, istehlakçı ölkələr əziyyət çəkir. Təbii ki, neftin qiymətinin kəskin şəkildə düşməsi neftlə zəngin olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərmişdir. Eyni zamanda, neft ölkələrində öz kontraktlarını icra edən digər ölkələr də əziyyət çəkir. Çünki o ölkələrin şirkətləri kontraktları daha az həcmdə icra edir və beləliklə, bu böhran o ölkələrə də mənfi təsir göstərir.

Avropanın miqrant böhranından danışan prezident qeyd etmişdir ki, bu bütün dünyada müşahidə olunur. O, demişdir: - Mən miqrant böhranı haqqında dəfələrlə öz fikirlərimi bildirmişdim. Bir daha demək istəyirəm ki, öz canlarını qurtarmaq istəyən o insanların heç bir günahı yoxdur. Onların ölkələri xarici müdaxilə nəticəsində dağıdılıb. Onların şəhərləri yerlə-yeksan edilib, yaxınları, qohumları, yüz minlərlə insan həlak olub. Onlar öz canlarını qurtarmaq üçün Avropaya pənah aparırlar. Ancaq Avropada bəzi hallarda onları tikanlı məftil, qəfəs gözləyir. Bu da, əlbəttə ki, əgər belə demək mümkündürsə bu ilin əlamətidir və bu, sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurur. Biz artıq neçə ildir çalışırıq ki, mədəniyyətlərarası dialoqu gücləndirək. Bizim fəaliyyətimiz dünyada böyük rəğbət qazanıb. Ancaq əfsuslar olsun ki, dünyanın müxtəlif ölkələrində tendensiya əks istiqamətdə gedir.

Miqrant böhranı öz növbəsində Qərb ölkələrində radikal partiyaların xeyrinə işləyir, onlar daha çox səs toplayırlar. Bu, ilk növbədə, onu göstərir ki, cəmiyyət artıq onlara daha böyük dəstək verir, eyni zamanda, əgər gələcəkdə bu meyil davam etsə bu partiyalar hakimiyyətə gələcəklər, - ondan sonra onların siyasətinin nədən ibarət olacağı heç kəs üçün sirr deyil, - beləliklə, sivilizasiyalararası qarşıdurma dərinləşəcək. Bizim cəmiyyətimiz bütün bu reallıqları bilməlidir. Artıq həm yaşadığımız bölgə, həm dünya dəyişib. Biz də öz siyasətimizi buna uyğun şəkildə aparmalıyıq.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə otu-rub-durmuruq. Ona görə bu gün Azərbaycanda inkişaf və sabitlik var. Bəzi insanlar bu gün də belə deməkdə davam edirlər ki, biz harasa inteqrasiya etməliyik. Bəlkə özləri də dərk etmirlər ki, bu, nə deməkdir. Biz hara lazımdırsa, artıq ora inteqrasiya etmişik. Bu gün Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda çox böyük rol oynayır və böyük rəğbət qazanıbdır.

Biz öz yolumuzla gedirik və Avropa ilə çox sıx əlaqələr qura bilmişik. Həm Avropa İttifaqı ilə bizim müxtəlif sənədlərimiz imzalanıb, eyni zamanda, növbəti sənəd üzərində iş aparılır. Bizim təşəbbüsümüzlə Avropa Komissiyasına göndərdiyimiz təklif indi müzakirə olunur, biz tərəfdaşlıq formatı haqqında danışırıq. Avropa İttifaqına üzv olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədlərimiz var. Biz 15 ildir ki, Avropa Şurasında çalışırıq və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Biz hətta o təşkilatda da dönüş yarada bilmişik. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, bizə qarşı ədalətsizliklər, ikili standartlar olub və bu gün vəziyyət tam normaldır. Ona görə əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik.

Belə bir beynəlxalq mənzərə fonunda Azərbaycan uğurla inkişaf edir. Bu il ölkəmizdə digər beynəlxalq tədbirlər də keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forumun Azərbaycanda keçirilməsi bu sahədə gördüyümüz işlərə dünya tərəfindən verilən böyük qiymət idi.

Prezident İlham Əliyev demişdir: - Bu il bizim beynəlxalq mövqelərimiz möhkəmlənib. Bir çox beynəlxalq təşkilatlarda Azərbaycana bir daha dəstək nümayiş etdirilib. Bu təşkilatlar arasında iki təşkilatı xüsusilə qeyd etmək istərdim. Biri İslam Əməkdaşlıq Təşkilatıdır ki, builki Zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaratmışdır. Kontakt qrupu artıq öz işinə başlayır. Zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünə bir daha dəstək ifadə olundu. Bu yaxınlarda Qoşulmama Hərəkatının - BMT-dən sonra ən çox üzvü olan bu təşkilatın Zirvə görüşündə də növbəti dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbay-canın suverenliyi, ərazi bütövlüyü çərçivəsində həll edilməsi haqqında qərar qəbul edildi. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Biz 25 ildir ki, müstəqil yaşayan ləyaqətli ölkəyik. Heç kimə imkan vermərik ki, bizi təhqir etsin. Qəbuledilməz hər bir hərəkətə cavabımızı veririk, sözümüzü deyirik, heç kimdən çəkinmirik, nəinki bizə aid olan məsələlərdə, bütün məsələlərdə prinsipial mövqe nümayiş etdiririk. Dünyada gedən işlərlə bağlı bizim mövqeyimiz var və biz bu mövqeyi çəkinmədən ifadə edirik.

Bu il iyirmidən çox dövlət, hökumət başçısı Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olub. Mən 14 xarici səfər etmişəm. Hələ ilin sonuna qədər həm Azərbaycana dövlət, hökumət başçıları gələcək, həm də mənim səfərlərim nəzərdə tutulur. Yəni, çox fəal xarici siyasət aparmışıq və bu siyasət Azərbaycanı bu gün dünyada nümunəvi ölkə kimi göstərir.

Prezident iqtisadi sahədə baş vermiş hadisələrə də toxunmuş, demişdir: - Neftin qiyməti düşdü və bunun nəticəsində dövlət investisiyaları azaldı, tikinti sektoruna az sərmayə qoyuldu və bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxardı. Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Sənaye potensialımız baxmayaraq ki, az artır - 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu, yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıbdır və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir.

Sosial layihələr icra edilib. İyirmi doqquz məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. Böyük yol layihələri, kənd yolları layihələri icra edilib. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatıb. İnfrastruktur layihələri icra edilir, 154 min iş yeri yaradılıbdır, onlardan 121 mini daimi iş yeridir. Doqquz ayda 36 min iş yeri bağlanıbdır. Əlbəttə, biz bağlanan iş yerləri ilə əlaqədar daim təhlil aparırıq – 121 min daimi iş yeri yaradılıb, 36 min iş yeri bağlanıb. Bu, çox gözəl göstəricidir. Hesab edirəm ki, böhranlı il üçün bu, xüsusi bir göstəricidir.

Digər istiqamətlərdə də bütün işlər plan üzrə gedir. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir, Azərbaycan çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Artıq uzaq məsafədən göndərilən yük konteynerləri Azərbaycan ərazisindən keçir. Yəni, biz çox güclü nəqliyyat infrastrukturu yaratmaqla ölkəmizin uzunmüddətli siyasi, iqtisadi maraqlarını təmin edəcəyik.

Mən hesab edirəm ki, 2016-cı ildə nəticələr bütövlükdə yaxşıdır, biz yaxşı işləmişik. Son illər ərzində 2016-cı il ölkə iqtisadiyyatı üçün ən çətin, ağır ildir. Ancaq qeyd etdiyim kimi, biz yenə də inkişaf yolu ilə gedirik və gedəcəyik.

* * *

İclasda baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, səhiyyə naziri Oqtay Şirəliyev, təhsil naziri Mikayıl Cabbarov çıxış etmişlər.

* * *

Azərbaycan Prezidenti iclasda yekun nitqi söyləmişdir.

O, demişdir: - Biz bu ilin sonuna qədər qalan bütün vəzifələri icra etməliyik, xüsusilə investisiya layihələri ilə bağlı işlər getməlidir. Dövlət investisiya proq-ramı icra edilməlidir. Bəzi istiqamətlər üzrə ləngimələr var, bəzi infrastruktur layihələri tam həcmdə icra edilməyib. Ona görə, - ilin sonuna qədər az vaxt qalsa da, - bu məsələlərə çox ciddi diqqət göstərilməlidir.

Biz bu il çox ciddi iqtisadi islahatlar aparmışıq və bu islahatlar artıq öz nəticələrini verməkdədir. İdarəetmə istiqamətində, digər sahələrdə, ixracı stimullaşdırmaq, idxaldan asılılığı azaltmaq üçün bir çox önəmli qərar və sərən-camlar qəbul edildi, imzalandı. Beləliklə, əminəm ki, gələn il həm idxalın azalması, həm ixracın artırılması istiqamətində çox yaxşı nəticələr olacaq.

Apardığımız islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilir. Bu yaxınlarda dünyanın bir nömrəli iqtisadi forumu - Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünyada 37-ci yerə layiq görmüşdür. Keçən il biz 40-cı yerdə idik, o da çox gözəl göstəricidir. Baxmayaraq ki, bu il dünyada böhran yaşanır və bizdən də yan keçməyib, Azərbaycan iqtisadiyyatı daha da yüksək qiymət alıb. Otuz yeddinci yerdə olmaq dünya miqyasında çox böyük və hesab edirəm ki, tarixi göstəricidir. MDB məkanında biz həmişə olduğu kimi, birinciyik və bu liderliyi saxlayırıq.

Gələn ilin dövlət büdcəsi müzakirə olunur. Dövlət büdcəmizdə bütün sosial proqramlar öz əksini tapmalıdır. Ümumiyyətlə, gəlirlərimizin azaldılmasına baxmayaraq, biz sosial sahədə tam vəsaiti təmin edirik. Heç bir sosial təşəbbüs və layihə ixtisar olunmadı. 2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır və əlbəttə ki, investisiyalar üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır. Biz əvvəlki illərdə dövlət investisiyalarına daha çox üstünlük verirdik. Bu da təbiidir, çünki biz bir çox layihələri, xüsusilə infrastruktur layihələrini icra etməli idik. Əgər biz onları icra etməsəydik, bu gün, ümumiyyətlə, inkişafdan söhbət belə gedə bilməzdi. Təbii ki, 2017-ci ilin dövlət investisiya proqramı indi hazırlanır və yaxın vaxtlarda mənə təqdim ediləcək. Ancaq biz özəl sektorun investisiyalarını daha da böyük həcmdə cəlb etməliyik.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində bu gün çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, sahibkarlar bu işlərə artıq böyük ruh yüksəkliyi ilə qoşulurlar. Ölkəmizdə böyük ruh yüksəkliyi var, xüsusilə kənd təsərrüfatı, emal və sənaye sektorlarında. Bakıda, böyük şəhərlərdə, bütün şəhər və rayonlarımızda çox böyük fəallıq müşahidə olunur. Bu da əlbəttə ki, həm bizim siyasətimizin təzahürüdür, - çünki özəl sektor sahibkarlığının inkişafı üçün çox ciddi addımlar atılıb, - eyni zamanda, bizim sahibkarlarımızın da məsuliyyətini göstərir. Sahibkar qazandığı vəsaiti ölkə iqtisadiyyatına qoymalıdır. Bu istiqamətdə 2017-ci ildə çox ciddi addımlar atılacaq.

O ki qaldı dövlət investisiya layihələrinə, onlar da nəzərdə tutulur və hesab edirəm ki, bu məqsədlər üçün kifayət qədər vəsait təmin edilməlidir. Yenə də qeyd etməliyəm ki, elektrik enerjisi, qazlaşdırma ilə bağlı əsas infrastruktur layihələri artıq icra edilib. 2017-ci ildə biz makroiqtisadi sabitliyə ciddi fikir verməliyik. İnflyasiya birrəqəmli olmalıdır. Hesab edirəm ki, biz bunu təmin edəcəyik.

Süni qiymət artımına yol verilməməlidir, çox ciddi nəzarət olmalıdır. Həm ictimai nəzarət, həm dövlət orqanları tərəfindən nəzarət daha da güclü olmalıdır.

Bank sektorunda islahatlar, konsolidasiya siyasəti davam etdirilməlidir. Bank sektorunda çox ciddi islahatlar aparılmalıdır. Bank sektoru şəffaf olmalıdır və ən yüksək dünya standartlarına cavab verməlidir.

Biz həmişə olduğu kimi, bu il də ölkəmizin sənaye potensialının inkişafına böyük diqqət göstərmişik və bir neçə sənaye parkının yaradılması istiqamətində işlər gedir. Bu parkın tam işə düşməsi nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri açılacaq və bizim qeyri-neft sahəsində çox böyük ixrac potensialımız yaranacaq.

Bakıda Balaxanı və Pirallahı sənaye parklarının yaradılması prosesi gedir. Hər iki istiqamət üzrə konkret layihələr var. Pirallahıda dərman istehsalı planlaşdırılır. Ümid edirəm ki, yaxın aylarda artıq birinci dərman istehsalı fabrikinin təməli də qoyulmalıdır. Biz xarici dərmanlardan demək olar ki, 100 faiz səviyyədə asılıyıq. Bu, həm təhlükəsizlik baxımından narahatedici məsələdir, eyni zamanda, dərmanların alınmasına xaricə böyük valyuta gedir. Buna görə, qərar qəbul olundu və investorlar da buna qoşuldular, yaxşı şərait yaratdıq. Azərbaycanda birinci mərhələdə 100-dən çox adda dərman preparatı istehsal olunmalıdır.

Bölgələrdə sənaye zonalarının yaradılması prosesi gedir. Artıq Neftçalada İran tərəfi ilə avtomobil zavodunun tikintisi başlamışdır. Masallıda sənaye zonasının yaradılması işi gedir. Digər rayonlarda da bu istiqamətdə işlər getməlidir.

Biz inşaat materialları sektoruna böyük investisiyalar cəlb edə bilmişik. Bu sektorda dövlət investisiyaları olmayıb, ancaq həm yerli, həm xarici özəl qurumlar bu sahəyə böyük investisiyalar qoyublar. Bu investisiyalar nəticəsində biz özümüzü inşaat materialları ilə kifayət qədər böyük həcmdə təmin edirik, ancaq tam təmin etmirik. Ona görə, bizim aidiyyəti qurumlar, dövlət qurumları, İqtisadiyyat Nazirliyi, digər qurumlar baxmalıdırlar ki, Azərbaycana hansı inşaat materialları idxal olunur. Azərbaycanda həmin istehsal sahələri yaradılmalıdır və güzəştli kreditlər verilməlidir, sahibkarlar özləri də bu sahəyə daha böyük diqqət göstərməlidirlər.

Biz daxili bazarı qorumaq üçün gətirilən bəzi mallara rüsumları bu yaxınlarda artırdıq. Bu, çox düzgün addımdır. Biz öz daxili istehsalçımızı qorumalıyıq. Daxili bazarımızı qorumaq üçün əlavə tədbirlər görülməlidir və burada çox çevik siyasət aparılmalıdır.

Bu yaxınlarda yaradılan Mənzil İnşaatı Dövlət Agentliyi öz işinə başlayıb. Yasamal rayonunda böyük tikinti layihəsi icra olunur və sosial mənzillərin tikilməsi prosesi artıq başlayır. Elə etməliyik ki, o layihələrdə istifadə olunacaq bütün inşaat materialları Azərbaycan mənşəli olsun.

Biz indi sənaye parklarında, digər sahələrdə, metallurgiya sahəsində bir çox böyük sənaye layihələrini icra edirik və bu istehsal olunacaq məhsulların demək olar ki, hamısı ixracyönümlüdür. Ona görə, biz nəqliyyat imkanlarımıza da baxmalıyıq və indidən planlaşdırmalıyıq ki, ixraca yönələcək məhsulları necə daşıyacağıq.

Beləliklə, sənaye sahəsində icrada olan və planlaşdırılan layihələr bizə böyük xeyir gətirəcək. Minlərlə, on minlərlə yeni iş yeri yaradılacaq və biz qeyri-neft ixracımızı artıracağıq. Əsas məsələ bundan ibarətdir. Bu gün neftin qiyməti 50 dollardır. Keçən ay 40 dollar idi. İlin əvvəlində 30 dollara düşmüşdü. Yəni, biz buna baxıb öz gələcəyimizi planlaşdıra bilmərik. Ona görə, neft ixracının azaldılmasını biz qeyri-neft ixracı ilə əvəzləməliyik. Bu sahədə sənaye və kənd təsərrüfatı əsas istiqamətlərdir.

Kənd təsərrüfatı sahəsində artıq dönüş yaranıb. Müxtəlif sahələr üzrə konkret proqramlar, layihələr icra edilib, böyük vəsait, texnika ayrılıb. Subsidiyalarda düzəlişlər edilir. İndi subsidiyalar fermerləri stimullaşdıracaq. Bu il bu sahədə bir sınaq ili idi. Əminəm ki, yaxşı nəticələr olacaq.

Sonra prezident İlham Əliyev kənd təsərrüfatı sahələri üzrə bəzi məsələlərə toxunmuş, pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, tütünçülük, çayçılığın inkişafından danışmış, heyvandarlıqla bağlı aparılan işlərin təqdirəlayiq olduğunu bildirmişdir.

Dövlət başçısı ölkəyə valyuta gətirən kənd təsərrüfatı sahələrinin inkişafının zəruri olduğunu vurğulamış, onların arasında fındıqçılığın çox böyük potensialı olduğunu, torpaqlardan səmərəli şəkildə istifadə etməklə badam plantasiyalarının salınmasından, zeytunçuluğun inkişaf etdirilməsindən danışmışdır.

Sonra o, demişdir: - Biz bu il ailə biznesinə "ASAN dəstək" sistemini yaradırıq. Bu, artıq Masallı "ASAN xidmət" mərkəzində mənə təqdim olundu. Çox təqdirəlayiq bir təşəbbüsdür. Yəni, kiçik sahibkarlığın inkişafı üçün bunun çox böyük dəstəyi olacaq. Ona görə, dövlət qurumları da, aidiyyəti qurumlar da bu işlərlə məşğul olsunlar. "ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatıb. Bunun çox böyük faydası var. Qarşıdakı iki ildə ən azı 4 mərkəz yaradılmalıdır.

Biz gördük ki, həyata keçirilən tədbirlər və aparılan islahatlar bu il turizmin axınına çox böyük təkan verib. Xüsusilə ərəb ölkələrindən gələnlərin sayı 20-30 dəfə artıb. Yay aylarında bizim otellərin çoxunda boş yer yox idi. Yəni, bu, ölkəmizə böyük valyuta gətirir.

Bir sözlə, artıq 2016-cı il sona yaxınlaşır. Qeyd etdiyim kimi, bu il dünya iqtisadiyyatı üçün, dünya üçün ağır il olmuşdur. Ancaq əminəm ki, Azərbaycan son üç ay ərzində görüləcək işlər nəticəsində 2016-cı ili də uğurla başa vuracaq. 2017-ci il də uğurlu olacaq. Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir, referendumun nəticələri bunu bir daha təsdiqləyir. Bizim yolumuz açıqdır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik.

Bioloji Təbabət
Almaniya-Azərbaycan
"Bioloji Təbabət" klinikası

Azadlıq və müstəqillik
Azərbaycan xalqının
müqəddəs arzusu olub.
Respublikamız müstəqil
dövlətdir. Öz gerbimiz,
öz bayrağımız, öz himnimiz,
öz Konstitusiyamız var.
Bayramın mübarək,
Azərbaycan!

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

Ərzaq bolluğu şəraitində rəqabətqabiliyyətli yerli məhsullara tələbat artır

Süd məhsulları istehsalı dünya aqrobiznesinin daha çox inkişaf etməkdə olan bölmələrindən biri kimi qalmaqdadır. Süd məhsullarının ən iri dünya istehsalçısı Yeni Zelandiyanın Fonterra şirkətidir. Bu şirkət hər il 21,6 mln. ton süd emal edir. Ekspertlərin fikrincə, 2017-ci ildə dünya süd bazarının ümumi dəyəri 505 mlrd. dollara çatacaq.

Bu sahənin ən böyük oyunçuları hər il istehsalı artırır və yeni bazarlar fəth edirlər. Məsələn, Yeni Zelandiyanın Fonterra şirkəti Çində, Nestle Mərakeşdə, Danone Ukrayna və Türkiyədə süd fermaları istismara vermiş, habelə Latın Amerikasının "Coca Cola" şirkəti Power Core südü əsasında innovasiyalı içki yaradaraq həmin süd məhsullarının populyarlığı hesabına mənfəətini artırmağa qərar vermişdir.

Almaniyanın İFCN elmi-tədqiqat mərkəzinin verdiyi məlumata əsasən, dünya bazarında 2012-ci ilin yekunlarına görə Fonterra kooperativi ən iri süd emalçısı olmuşdur. Şirkət öz gücü ilə 21,6 mln. ton süd emal etmişdir. İkinci yeri ABŞ-ın Dairy Farmers of America şirkəti tutur. Onun nəticəsi 17,1 mln. ton süd emalı olmuşdur. Lider üçlüyü Avropada süd məhsulları istehsalçısı, fransızların Lactalis (Parmalat) şirkəti qapayır. Həmin il şirkət 15 mln. ton süd emal etmişdi.

Süd və süd məhsullarının insan orqanizminə böyük xeyri barədə çox danışmağa ehtiyac yoxdur. Belə ki, süd məhsulları maddələr mübadiləsini tənzimləyir, həzm prosesini asanlaşdırır. Tərkibində B1, B2, B12 və D vitamini olan süd və süd məhsulları mədə-bağırsaq xəstəlikləri yaradan mikrobları məhv edir. Süd məhsullarının tərkibində mikroelementlər, dişləri və sümükləri möhkəmləndirən kalsium və fosfor var. Kalsium sinir sisteminin, ürək əzələsinin, gözlərin sağlamlığında böyük rol oynayır.

Süd məhsulları, həmçinin, insanın bağırsaq mikroflorasını yaxşılaşdırır.

2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramında deyilir: "Ət və süd məhsullarının emalı, heyvandarlıq məhsullarının emalı şəbəkəsinin genişləndirilməsi əsas vəzifələrdən biridir. Ölkədə 45 ət, 127 kiçik süd emalı müəssisəsi fəaliyyət göstərir. Bu emal müəssisələrinin gücü tələbatı tam ödəmir. Məsələn, süd emalı müəssisələrinin kifayət qədər olmamasına görə hər il ən azı 150 min ton süd keyfiyyətini itirir. Kəsilmiş ətin 14 faizi və ya 23 min tonu sənaye üsulu ilə emal edilmədən satılır. İstehsal olunan südün yalnız 43,5 faizi sənaye üsulu ilə emal edilir ki, bu da əhalinin kərə yağına, pendirə, kəsmiyə və xamaya olan ehtiyacının böyük hissəsinin idxal hesabına ödənilməsinə gətirib çıxarır. Bununla əlaqədar olaraq ölkədə müasir tələblərə cavab verən, xammal bazasına yaxın ərazilərdə ət və süd emal edən yeni müəssisələrin yaradılması və xammalın saxlanılması üçün soyuducuların tikilməsi üzrə özəl sektorun təklifləri dəstəklənməlidir".

Dövlət Proqramından görünür ki, ölkəmizdə süd və süd məhsullarına tələbat artır və bu müəssisələrin artırılmasına böyük ehtiyac vardır.

"Özümüzü kərə yağı ilə tam təmin etmək üçün bizə əlavə 50-60 min cins mal-qara və əlbəttə, kərə yağı istehsal edən yeni müəssisələr lazımdır. Çünki süd və süd məhsullarının istehsalında biz özümüzü 80 faiz səviyyəsində təmin edirik, tezliklə 100 faizə çatmalıdır. Mövcud zavodlarda yeni xətlər qurulmalı, yeni müəssisələr tikilməli və Azərbaycanda süd məhsullarının bütün növləri 100 faiz istehsal olunmalıdır". Bunu oktyabrın 7-də Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir.

Hazırda Azərbaycanda süd məhsulları istehsal edən müəssisələr artmaqdadır. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Lənkəran, Xırdalan, Şamaxı, Bərdə, Zərdab, Salyan və Siyəzəndə süd emalı müəssisələri fəaliyyət göstərir. Bakıda yerləşən müəssisələr arasında "Milk - Pro" MMC-nin süd zavodunu göstərmək olar. Bu zavod istismara verildiyi gündən Hövsan qəsəbəsində məş-gülluğun artmasına müsbət təsir etməklə, əhalinin süd məhsulları ilə təchiz edilməsində böyük rol oynayır.

"Milk - Pro" MMC – süd və süd məhsulları istehsalında lider

"Milk - Pro" MMC 1991-ci ildə tibbi-bakterioloji süd məhsulları istehsal edən şirkət kimi təsis edilmişdir.

Əvvəllər şirkət müalicəvi-dietik süd məhsulları istehsalı üzrə ixtisaslaşsa da, sonradan – 1994-cü ildən başlayaraq "Milk - Pro" MMC istehsal etdiyi müalicəvi süd məhsulları ilə yanaşı, xama, kəsmik, qatıq və s. kimi ümumi süd məhsulları da istehsal etməyə başlamışdır. Elə o dövrdən başlayaraq, istehsal etdiyi məhsulların çeşidini 3 addan 50 ada qədər qaldırmış və nəticədə süd və süd məhsullarının satışı üzrə ölkədə və ölkə hüdudları xaricində Azərbaycanın bu sahəsinin liderinə çevrilmişdir.

«Milk-Pro» MMC-nin Hövsan qəsəbəsində yeni süd emalı zavodunun təməlqoyma mərasimi 2007-ci il noyabr ayının 30-da Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) maliyyə dəstəyi ilə keçirilib. O vaxt gündəlik istehsalat gücü 150 ton olacağı nəzərdə tutulan yeni emal zavodu ölkədə süd və süd məhsullarının istehsalı və ixracının genişləndirilməsinə xidmət edəcəkdi. Hövsan qəsəbəsində tikilən yeni süd emalı zavodunun və eyni zamanda, Göyçay rayonunda mövcud süd emalı zavodunun yenidən qurulmasını nəzərdə tutan layihənin ümumi dəyəri 7 817 786 manat təşkil edirdi.

AİŞ-in Müşahidə Şurasının həmin il martın 30-da keçirilən iclasında «Milk-Pro» MMC-nin nizamnamə kapitalında 20%-lik iştirak payı müqabilində 4 620 887 manat investisiya qoyuluşu barəsində qərar qəbul edilmişdi.

Nəhayət, 2012-ci ildə bu əlamətdar hadisə baş tutdu və Hövsan qəsəbəsində yeni süd zavodu istismara verildi. Bu layihənin ümumi dəyəri 12,230,000 dollar təşkil edirdi.

Avropa Yenidənqurma və İnkişaf Bankının da iştirak etdiyi investisiya layihəsinə görə, müəssisənin qarşısında qoyulan əsas məqsədlər Bakı şəhərində təbii südün toplanması və emalı üzrə yeni zavodun inşasından, fəaliyyətdə olan Göyçay süd zavodunun istehsal gücünün artırılmasından, Gürcüstanda müvafiq istehsalatın qurulmasından və məhsulların çeşidinin genişləndirilməsindən ibarət idi.

Hal-hazırda şirkətin təsisçiləri arasında Avropa Yenidənqurma və İnkişaf Bankı və Azərbaycan İnvestitsiya şirkətləri də vardır. Şirkətin tərkibində 3 süd və 2 meyvə emalı zavodu fəaliyyət göstərir. 2012-ci ildə isə Hövsan qəsəbəsində şirkətin Bakı süd zavodunun istismara verilməsi ilə bu sahədə irəliləyiş müşahidə olunur.

Burada bazarın konyukturası nəzərə alınaraq, ciddi texnoloji tələblərə uyğun olan hər bir məhsul sertifikatlaşdırılmışdır. 2001–ci ildən isə "Milk - Pro" MMC şirkəti keyfiyyətin idarə olunması, İSO 9001 Beynəlxalq Keyfiyyət Standartını istehsalatda tətbiq edir.

"Milk - Pro" MMC geniş paylama şəbəkəsinə malikdir. Qeyd edək ki, bu məhsulları uzun müddət saxlamaq mümkün olmadığı üçün onların paylaşdırılması da vaxtında həyata keçirilməlidir. Şirkətin avtomobilləri bütün Azərbaycan üzrə hər gün təzə məhsulları yüksək dəqiqliklə paylaşdırır. Şirkətin diqqətçəkən addımlarından biri də şəxsi "Sevimli-Dad" adda mağazaların bazara girişi olmuşdur. Bu mağazalarda təzə ət məhsulları ilə yanaşı, ən yüksək keyfiyyətdə gündəlik təzə və tam çeşiddə süd və süd məhsulları münasib qiymətlərlə alıcılara təqdim edilir. Artıq əminliklə demək olar ki, bu milli brendimiz istehlakçılar arasında sevilir və tanınır.

Şirkətin missiyası geniş, müasir və tələbkar alıcı kütləsinin istəyini qarşılamaq üçün yüksək texnologiyaların tətbiqi ilə ən keyfiyyətli təbii süddən beynəlxalq standartlara uyğun məhsul istehsal etməkdir.

"Milk - Pro" MMC şirkəti məhsullarının istehsal xüsusiyyətləri

Süd məhsulları istehsalı məsuliyyətli yanaşma və çoxlu xırdalıqlara riayət etməyi tələb edən mürəkkəb prosesdir. "Milk - Pro" MMC şirkətinin fəaliyyəti bunu əyani şəkildə təsdiq edir.

Məlumdur ki, süd məhsulları istehsalı müasir avadanlıqla təchiz olunmalı, istifadə olunan xammalın və hazır məhsulun keyfiyyətinə ciddi nəzarət edilməli və qablaşdırmanın müasir növlərindən istifadə olunmalıdır. "Milk - Pro" MMC şirkəti süd biznesinin ənənələrinə və müasir texnoloji proseslərə əsaslanaraq süd məhsulları istehsal etməyi qarşısına məqsəd qoymuşdur. Qeyd edək ki, istənilən məhsulun dadı və keyfiyyəti xammaldan çox asılıdır. Ona görə də, şirkətdə xammalın haradan gətirilməsinə, onun dadına və keyfiyyətinə ciddi nəzarət edilir.

Uşaqlıq illərindən tanış dad

"Milk - Pro" MMC şirkətinin süd məhsulları, həqiqətən də, istər süd, istər pendir, istərsə də xama və kəsmik bizə uşaqlıq illərindən tanış olan, kənd evlərində böyük sevgi ilə hazırlanmış ərzaqların dadını verir.

"Milk - Pro" MMC şirkəti qatqısız inək südündən yalnız natural süd məhsulları istehsal edir. Şirkətin məhsullarına ərzağın uzun müddət xarab olmaması üçün qatılan konservantlar, stabilizatorlar vurulmur. Buraxılan məhsulun stabil keyfiyyəti həm xammalın, həm də hazır məhsulun keyfiyyətinə nəzarət sistemi ilə təmin edilir.

Hazırda ərzaq bazarında ekoloji təmiz, kimyəvi qatqısız və yüksək keyfiyyətli məhsullara böyük ehtiyac duyulur. Əminik ki, "Milk - Pro" MMC şirkətinin məhsulları bu tələblərə tam cavab verir və insanlar bu məhsulları ehtiyat etmədən ala bilərlər.

Yeganə MƏMMƏDOVA

Azərbaycan Rusiya şirkəti ilə birgə müəssisə yaradıb

"Azərbaycan Dəmir Yolları" QSC və "Rusaqrotrans" şirkəti tərəfindən Bakıda birgə müəssisəsinin yaradılması ilə bağlı saziş imzalanıb.

Sənədi "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov və "Rusaqrotrans" şirkətinin Direktorlar Şurasının üzvü Oleq Roqaçyov imzalayıblar.

Şirkət sentyabr ayının əvvəlində Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınıb. Müəssisənin 51%-i "Azərbaycan Dəmir Yolları" QSC-yə, 49%-i isə "Rusaqrotrans"a məxsusdur.

Şirkətin baş direktoru Cavid Quliyevdir.

"Azrustrans" taxıl daşımaları ilə məşğul olacaq. İlkin mərhələdə müəssisə taxıl daşıyan vaqonları səhmdarlarından icarəyə götürəcək, sonrakı mərhələdə isə öz parkını yaradacaq. Hesablamalara görə, şirkət 2500-3000 vaqon almaq niyyətindədir.

Şirkət Türkiyə və İrana taxıl tranzitini həyata keçirəcək. Bunu nəzərə alaraq səhmdarlar Azərbaycan-İran sərhədində 30 min ton taxıl saxlamaq iqtidarında olan terminal tikmək niyyətindədir. Sonrakı mərhələdə terminalın imkanları genişləndirilə bilər.

«Tax free» istifadəçiləri üçün yeni internet saytı

Ölkəyə xarici turistlərin marağının artırılması, turizm sektorunda sürətli inkişafın davamlılığının təmin edilməsi və rəqabət qabiliyyətinin möhkəmləndirilməsi məqsədilə dövlət başçısının 12 iyul 2016-cı il tarixli fərmanı ilə «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası» təsdiq edilib və həmin fərmanın 4-cü bəndi ilə Vergilər Nazirliyinə «Tax free» sisteminin tətbiqinə başlanması ilə bağlı müvafiq tapşırıqlar verilib.

Fərmanda qeyd olunan tapşırıqların icrasının təmin edilməsi məqsədilə Vergilər Nazirliyinin müvafiq əmri ilə «Tax free» sisteminin bütün zəruri məlumatlarını özündə əks etdirən və domen adı «www.taxfree.az» olan internet saytı yaradılıb. www.taxfree.az saytına keçid Vergilər Nazirliyinin www.taxes.gov.az və www.e-taxes.gov.az internet saytlarında və sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirilib.

Azərbaycanda «Tax free» sistemi haqqında bütün zəruri məlumatları özündə əks etdirən www.taxfree.az internet səhifəsi Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir. Bu resurs vasitəsilə istifadəçilər ilk öncə Azərbaycan Respublikası haqqında, o cümlədən ölkəyə gəlmək istəyən əcnəbi vətəndaşlar onlara gərəkli olan bütün məlumatlarla (məsələn, elektron turist vizaları barədə) tanış olmaq imkanı əldə edə bilərlər.

Səhifədə «Tax free» sisteminin Azərbaycandakı özəllikləri, bu sistemi tənzimləyən qanunvericilik aktları, normativ sənədlər barədə hər üç dildə ətraflı məlumat almaq mümkündür. İstifadəçi rahatlığını təmin etmək üçün saytda alıcı və satıcılara aid xüsusi bölmələr yaradılıb. Sistemdən yararlanmaq istəyən alıcılar ƏDV-nin qaytarılması şamil olunmayan mallar, «Tax free» stikeri olan mağazalarda malların satışının rəsmiləşdirilməsi, ƏDV-nin geri qaytarılması, habelə «Tax free» sisteminə qoşulmuş ticarət obyektləri barədə məlumatlar ala bilərlər. «Tax free» sistemini öz ticarət obyektlərində tətbiq edən satıcılar isə bu sistemə qoşulmaq üçün zəruri olan tələblər, qeydiyyat və qeydiyyatın ləğvolunma prosesi, öz mağazalarında malların satışının rəsmiləşdirilməsi, habelə Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalındakı «Tax free» bölməsindən istifadə təlimatı ilə tanış olmaq imkanı əldə edirlər.

Səhifədə, həmçinin, ölkə üzrə «Tax free» sisteminə qoşulmuş bütün ticarət obyektləri barədə ətraflı məlumatlar da (obyektin adı, yerləşmə ünvanı) yerləşdirilib. ƏDV-nin qaytarılması, o cümlədən ölkə ərazisindəki hava limanlarında «Tax free» məntəqələri barədə məlumatlar isə «TAX REFUND» bölməsində yer alır.

Bundan başqa, səhifədə əks-əlaqə yaratmaq imkanları da təqdim olunur ki, bunlar Vergilər Nazirliyinin Çağrı Mərkəzi (195-1), Vergi ödəyicilərinə xidmət mərkəzləri barədə məlumatlar və nazirliyin rəsmi səhifəsindəki «Sual-cavab» bölməsi vasitəsilə yaradılmış imkanları özündə cəmləşdirir. Alıcıların rahatlığını təmin etmək üçün daha bir imkan - «Tax free» kalkulyatoru da hazırlanaraq istifadəyə verilib.

Proqnoz tapşırığı yerinə yetirilib

2016-cı ilin yanvar-sentyabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 4 milyard 926 milyon 187,0 min manat vəsait daxil olub, proqnoz tapşırığına 100,2% əməl edilib. Dövlət Neft Şirkəti büdcə qarşısındakı vergi öhdəliklərinə 100,6% əməl etsə də, Hasilatın Pay Bölgüsü üzrə (PSA mənfəət) proqnoz tapşırığı kəsrlə, yəni 82,0% icra olunub. Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 3 milyard 843 milyon 653,9 min manat vəsait daxil olub, proqnoz tapşırığına 101,7% əməl edilib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 365 milyon 969,9 min manat və ya 10,5% çoxdur. Hesabat dövründə respublika üzrə 89.101 vergi ödəyicisi qeydiyyata alınıb.

Oktyabrın 1-i tarixinə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 739.297 olub ki, bu da ötən ilin eyni dövründə qeydiyyatda olan vergi ödəyicilərinin sayından 12,2% çoxdur.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 89,7% təşkil edib.

Vergi hüquqpozmalarına qarşı mübarizə tədbirləri

2016-cı ilin 9 ayı ərzində vergi ödəməkdən yayınma və qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma faktları üzrə başlanmış 339 cinayət işi üzrə aparılan araşdırmalar zamanı 54 milyon 14 min manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib ki, bu da 2015-ci ilin eyni dövrü ilə müqayisədə 9 milyon 751 min manat çoxdur. 175 cinayət işi üzrə büdcədən yayındırılmış vergilər ibtidai istintaq zamanı tamamilə ödənildiyinə görə onların icraatına xitam verilib.

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin İstintaq idarəsində 719 cinayət işi üzrə ibtidai istintaq tamamlanıb, 11 nəfər təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. İstintaqı tamamlanmış cinayət işlərindən 95 iş üzrə 109 nəfər şəxs barəsində materiallar ittiham aktı ilə aidiyyəti üzrə baxılması üçün məhkəmələrə göndərilib.

Cinayət işləri üzrə keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində vergi cinayətləri törətdiklərinə görə barələrində axtarış elan olunmuş 35 nəfər şəxs tutularaq Departamentin İstintaq idarəsinə təhvil verilib, ibtidai istintaqdan yayınan 274 şəxsin məcburi qaydada gətirilməsi, 504 şəxsin tapılaraq istintaqa gəlmələri, 591 şəxsin yerinin müəyyən olunaraq istintaqa məlumat verilməsi təmin edilib. Vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasına köməklik göstərilməsi ilə bağlı müraciətlərə baxılması nəticəsində vergi yoxlamalarından, əmlakının siyahıya alınmasından yayınan və fəaliyyəti barədə bəyannamə təqdim etməyən 120 nəfər vergi ödəyicisi tapılaraq, onların müvafiq vergi orqanlarına gəlmələri təmin olunub.

Taksi sürücülərinə vergi xəbərdarlığı

Bakı Nəqliyyat Agentliyi taksi sürücülərinə xəbərdarlıq edib.

Agentlikdən verilən məlumata görə, "Fərqlənmə nişanı" almadan taksi minik avtomobilləri ilə sərnişindaşımanı həyata keçirən şəxslər barəsində Bakı Nəqliyyat Agentliyi, Daxili İşlər Nazirliyi və Vergilər Nazirliyi tərəfindən qanunla tədbirlər görüləcək.

Bakı şəhərinin inzibati ərazisində taksi fəaliyyəti göstərən hüquqi və fiziki şəxslər tərəfindən "Fərqlənmə nişanı" almaq üçün vergi istənilən bankda ödənilə bilər.

Vergi ödənildikdən sonra "Fərqlənmə nişanı" Bakı Nəqliyyat Agentliyinin tabeliyində olan "Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi" MMC-nin inzibati binasında təqdim edilir.

“Vergi sahəsində kadr hazırlığı: problemlər və perspektivlər” mövzusunda dəyirmi masa keçirilib

Oktyabrın 7-də Vergilər Nazirliyinin Şamaxı şəhərində yerləşən Tədris Mərkəzində **“Vergi sahəsində kadr hazırlığı: problemlər və perspektivlər”** mövzusunda dəyirmi masa keçirildi. Tədbirdə dövlət orqanlarının, ali təhsil və elmi-tədqiqat müəssisələrinin, qeyri-hökumət təşkilatları və sahibkarların ictimai birliklərinin nümayəndələri və müstəqil ekspertlər iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan **Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov** tədbir iştirakçılarını salamlayaraq, onları Vergilər Nazirliyinin Şamaxı şəhərindəki Tədris Mərkəzində görməyə şad olduğunu bildirdi:

- Mövzusu maraqlı və vacib olan tədbirdə iştirakınıza görə dərin təşəkkürümü bildirirəm və əminəm ki, öz faydalı təklif və tövsiyələrinizlə tədbirin işinə böyük töhfə verəcəksiniz.

Bu dəyirmi masanın təşkil olunmasında məqsəd kadr hazırlığı sahəsində təcrübə mübadiləsi aparmaq, yeni tendensiyalar və insan resurslarının inkişafı strategiyalarına ümumi yanaşmaları müəyyən etmək, eləcə də bu sahələrdə tətbiq edilən metod və texnologiyalar və onların təkmilləşdirilməsinin yolları barədə müzakirələr aparmaqdır.

Məlumdur ki, hər bir dövlətin kadr siyasəti kadrlarla iş proseslərinin və münasibətlərin təşkili və tənzimlənməsi yolunda təsbit olunmuş məqsəd, vəzifə və prinsiplərin sistemidir. Məhz kadrlar dövlətin funksiya və vəzifələrini yerinə yetirmək üçün zəruri meyar hesab olunurlar, məhz insan kapitalı xalqların inkişaf və yaşayış səviyyəsinin, qazandığı uğurların əsas zəmini kimi çıxış edir.

Bu gün müstəqil dövlətimizin inkişafı üçün aparılan islahatların mərkəzində məhz insan amili dayanır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün dövlət proqramında da insan kapitalının yüksək inkişaf səviyyəsinin təmin edilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında ənənəvi iqtisadiyyatdan “bilik iqtisadiyyatına” keçidin əsasının qoyulmalı olduğu, bunun üçün isə həlledici olan insan kapitalının adekvat inkişafının ön plana çəkilməli olduğu müəyyənləşdirilmişdir.

Nəhayət, Azərbaycan Respublikası Prezidentinin “2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında” 4 avqust 2016-cı il tarixli Sərəncamında verilmiş tapşırıqların icrası vergi orqanlarında kadr hazırlığının gücləndirilməsini tələb edir.

Vergilər Nazirliyi olaraq biz həm savadlı vergi əməkdaşlarının, həm də məlumatlı vergi ödəyicilərinin olmasında maraqlıyıq. Buna görə də hər iki istiqamətdə tədbirlər, layihələr həyata keçiririk.

Kadr siyasətinin əsas vəzifələrindən birini kadr potensialının, kadrların peşəkarlığının inkişaf mexanizminin formalaşdırılmaşı təşkil edir. Bu işdə kadrların təlim sistemi mühüm əhəmiyyət kəsb edir. **Səmərəli təlim prosesinin məntiqi sxemini bu cür təsəvvür etmək olar: strategiya – tələbat – plan – proqram – qiymətləndirmə.** Təlim prosesi öncə təşkilatın təlim strategiyasının, strateji hədəf, məqsəd və vəzifələrin müəyyənləşdirilməsindən və daha sonra isə bu məqsədə nail olmaq üçün hansı təlimlərə tələbatın olduğunun aydınlaşdırılmasında başlanılır. Bu tələbatlara uyğun təlim proqramları qurulur. Təlim proqramları kortəbii deyil, məhz strategiyaya əsasən tərtib olunur və təşkilatın təlim tədbirləri planına daxil edildikdən sonra ardıcıllıqla tədris olunur və sonda təlim prosesi, həmçinin təlim iştirakçılarının qiymətləndirilməsi həyata keçirilir.

Vergi ödəyicilərinin, ümumilikdə əhalinin vergi sahəsində biliklərinin artırılması istiqamətində də Vergilər Nazirliyi fəal iş aparır. Nazirlikdə Vergi ödəyicilərinə xidmət baş idarəsi yaradılıb, yerli vergi orqanlarında xidmət strukturları da fəaliyyət göstərir ki, onların da əsas missiyası vergi ödəyicilərini maarifləndirmək, məlumatlandırmaqdır.

Bu dəyirmi masa çərçivəsində maliyyə-vergi sahəsində kadr hazırlığı, kadr hazırlığı prosesində rast gəlinən problemlər, maliyyə-vergi sahəsində kadr hazırlığı prosesində nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi, Vergilər Nazirliyinin kadr hazırlığı sahəsində fəaliyyətinin əsas istiqamətləri və təlim sahəsindəki nailiyyətləri haqqında geniş müzakirələr aparılacaq, müvafiq biliklər əldə olunacaqdır. Bu gün bizim tədbirdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə də iştirak edir. O, uzun illər Azərbaycan iqtisad elmi sahəsində çox dəyərli tədqiqatlar aparmış, ölkədə iqtisadi qanunvericilik bazasının formalaşması üçün məhsuldar əmək sərf etmişdir. Dəvətimizi qəbul edib bugünkü tədbirdə iştirak etdiyi üçün, istərdim, ona bir daha öz təşəkkürümü bildirim və çıxış üçün sözü dəyərli akademikimizə verim.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə:

- Hamını salamlayıram. Bu möhtəşəm zalda toplaşan insanların əksəriyyəti Azərbaycan müstəqillik əldə etdikdən sonra bazar münasibətləri ideologiyasının formalaşmasında fəal iştirak edən insanlardır. Mən burada çox dəyərli iqtisadçıları, alimləri, hüquqşünasları, siyasət adamlarını görürəm. Bir daha təkrar edirəm ki, bu insanlar, sözün əsl mənasında, 20 il ərzində Azərbaycanda bazar iqtisadiyyatının qurulmasının nəzəri, elmi, metodoloji əsasları, bazar iqtisadiyyatı prinsiplərinin təbliği ilə bilavasitə məşğul olmuş, bazar iqtisadiyyatı problemlərinə dair çoxsaylı dərsliklərin, monoqrafiyaların nəşr edilməsində fəal iştirak etmişlər. **Azərbaycan müstəqillik əldə etdikdən sonrakı ilk illəri xatırlayıram, iqtisadiyyatımızın vəziyyəti, ölkədəki xaos o qədər ciddi idi ki, sağlam ideyalara əsaslanan ən xırda tədbiri də keçirmək həddən artıq çətin idi. İqtisadiyyatdan başı çıxmayan, professionallıqdan uzaq olan insanlar ölkə iqtisadiyyatını dağıdırdılar. O illərdən artıq 25 il keçir. Bu, qısa bir dövrdür. Amma Azərbaycan bir müstəqil dövlət kimi neçə-neçə onilliklərdə əldə olunmayan inkişafa nail olubdur. Ulu öndər Heydər Əliyevin qurduğu Azərbaycan dövləti çox inamla inkişaf edir, respublikamızın hər bir guşəsində irimiqyaslı möhtəşəm tədbirlərin keçirilməsi üçün gözəl şərait yaradılmışdır.**

Bu gün Azərbaycanın çox gözəl bir güşəsində, zəngin təbiətə malik bir məkanda - Şamaxıda dünyanın ən tələbkar standartlarına cavab verən bir tədris mərkəzindəyik. Vergilər Nazirliyinin bu tədris mərkəzində çox gözəl şərait yaradılıb. Bugünkü tədbirin keçirilməsində məqsəd iqtisadiyyatımızın sivil yollarla idarə edilməsi imkanlarını genişləndirmək, onun canlanmasına töhfələrimizi artırmaq, milli iqtisadiyyatın davamlılığını, onun keyfiyyətli strukturunu təmin etməkdir. Cənab prezident də dəfələrlə qeyd edir ki, Azərbaycan iqtisadiyyatını keyfiyyətli və sürətlə inkişaf etdirmək üçün iqtisadi islahatlar dərinləşməlidir. Bu prosesin əsas istiqamətlərindən biri də ölkədə aparılan vergi siyasətidir. Vergi qanunvericiliyini təkmilləşdirmək, vergi mədəniyyətini yüksəltmək ən vacib məsələlərdən biridir. Ulu öndər Heydər Əliyevin müdrik kəlamlarından biri də o idi ki, bazar iqtisadiyyatı vergilərlə tənzimlənməlidir. Vergi sistemi nə qədər güclü, aydın, şəffaf olarsa, vətəndaşların hamısı vergi ödəyiciləri kimi hüquq və vəzifələrini bilərlərsə, ölkənin maliyyə imkanları da bir o qədər artar. Bir neçə faktı qeyd edim. **Son 15 ildə ÜDM-də dövlət büdcəsinin rolunun iki dəfə çoxalıb artmasına nail olmuşuq, yəni Azərbaycan dövləti özünün konstitusiyasında müəyyən edilmiş funksiyalarının yerinə yetirilməsi üçün kifayət qədər maliyyə resurslarına malikdir. Bu resurslar nəyin hesabına əldə olunub? Təbii ki, vergi yığımları hesabına.** İnkişaf etmiş ölkələrin əksəriyyətində vergi mədəniyyəti yüksəkdir. Vətəndaşlar dərk edirlər ki, vergi yığılmasa, dövlət büdcəsi formlaşmayacaq, və ya çətinliklə formalaşacaqsa, bu, dövlətin funksiyalarının yerinə yetirilməsinə öz təsirini göstərəcək. Ona görə savadlılığın artırılması, vergi mədəniyyətinin yüksəldilməsi ilə bağlı məsələlərin həlli professional kadrlar olmadan qeyri-mümkündür. Bu baxımdan bugünkü tədbir, mənim fikrimcə, çox böyük məna daşıyır.

Xatırlayıram, Ali Sovetdə çalışdığım vaxtlarda vergi haqqında qanun layihəsini hazırlayarkən çox çətinliklərlə üzləşirdik. Ən böyük səbəb ondan ibarət idi ki, Sovet sistemində respublikalarda vergi məsələsinə dair söhbət də getmirdi. Çünki vergi məsələləri yalnız İttifaq hökumətinin sərəncamında idi. Müstəqillik bizə imkan verdi ki, biz özümüz dövlətimizin özünün qanunvericilik bazasını yaradaq. Bu qanunvericilik bazası, o cümlədən iqtisadi qanunvericilik bazası artıqformalaşmışdır. 2001-ci ildə Vergi Məcəlləsi qəbul olundu. Məcəllə imkan verdi ki, Azərbaycan vergi-maliyyə məsələləri barədə dünyanın bir çox ölkələri ilə əməkdaşlıq etsin. Bu isə ölkəyə investisiya axınını təmin etmək üçün vacib əsaslardan biri oldu. Elə götürək, ikiqat vergi məsləsini. 50-dən çox ölkə ilə əməkdaşlıq etdik. Yəni, bizim Vergi Məcəlləmiz dünyəvi tələblər baxımından kifayət qədər təkmil bir qanundur. Bugünkü tədbirdə iştirak edən insanlar, yuxarıda qeyd etdiyim kimi, əsərlər, kitablar yazıblar, insanlarda bazar münasibətlərinə dair fikir formalaşdırıblar. Bunlar hamısı lazımdır. Bəs, nəyimiz çatışmır? Etiraf edək ki, maliyyə sistemində bir sıra məsələlər var ki, onlara mütləq ümumi baxışlar olmalıdır. Çünki Qərbin iqtisadiyyatla bağlı bir çox dərsliklərində milli maraqlara cavab verməyən fikirlər var. Bəziləri, təəssüf ki, bu fikirlərə aludə olublar. Halbuki, ölkə iqtisadiyyatının taleyüklü məsələlərində vahid yanaşma olmalıdır. Hər bir sahənin spesifik xüsusiyyəti var. Maliyyə sistemində çalışan insan nə vaxt peşəkar ola bilər? Büdcə tərtibatında nəzəri biliklər əldə edən kadr büdcənin hazırlanması prosesində aparılan hesablamalarda bilavasitə iştirak etmədən heç vaxt təcrübəli ola bilməz. Eləcə də, iqtisadiyyatın digər sahələrində.

Qlobal təfəkkür hamımıza lazımdır. Yəni, qlobal təfəkkür olmadan lokal, konkret qərar qəbul etmək istənilən nəticəni verə bilməz. Bizim ölkəmizə kredit vermək istəyənlər çoxdur. Biz onlardan yalnız və yalnız əlverişlisini, milli maraqlarımıza uyğun gələnləri seçirik. Ölkə iqtisadiyyatına çoxlu investisiya qoymaq istəyənlər var. Lakin bəzən elə şərtlər irəli sürürlər ki, biz onları qəbul edə bilmərik. Yəni, iqtisadiyyatın hər bir sahəsində peşəkarlıq tələb olunur. Siyasətimizin ana xətti milli iqtisadiyyatımızı davamlı və keyfiyyətli inkişaf etdirməkdir. Bunu etsək və etməliyik də ki, Azərbaycanımızın gələcək inkişafına nail ola bilək. Bu gün neftin qiyməti aşağı düşdü, büdcə gəlirləri xeyli azaldı. Bunlar bizdən asılı olmayan səbəblərdir. Bu səbəblərin təsirini azaltmaq üçün biz milli iqtisadiyyatımızın inkişafı naminə əlverişli güzəştli şərait yaratmalıyıq. Bu şərait də ilk növbədə vergi sistemi ilə əlaqədardır. Bu gün Azərbaycanda artıq vergi mədəniyyəti, onun idarə edilməsi, informasiya texnologiyalarından istifadə üçün bizim kadrlarımız daha sistemli hazırlanmalıdır. Bugünkü tədbirdə ən vacib məqamı nəzəriyyənin praktika ilə əlaqələndirilməsi yollarını uzlaşdırmaq təşkil edir. Mən çox arzu edərdim ki, bu kimi tədbirlərimiz digər aktual məsələlərə də həsr edilsin. Hər bir iqtisadi problemin milli maraqlar baxımından müzakirəsi və təhlili vacibdir. Götürək, qabaqcıl dünya universitetlərini. Onlarda və Azərbaycanda vergi, maliyyə, uçot məsələlərini müqayisə edək, yenilikləri tətbiq edək. **Bəzi dərsliklərdə qeyd edilir ki, dövlətin rolu minimuma endirilsin və bunu azad iqtisadiyyatın əsas göstəricisi kimi qələmə vermək istəyirlər. Amma dərk etmirlər ki, qloballaşan dünyada, risklərin artdığı bir şəraitdə dövlətin rolunun minimuma endirilməsi yolverilməzdir. Bəzən çıxışlarda qeyd edilir ki, bu və ya digər vergi növünü və ya büdcə maddəsində olan rəqəmi azaltmaq və ya artırmaq lazımdır. Peşəkar iqtisadçı belə deməməlidir. Yəni, sistemli təhlil aparılmalıdır. Azaltmaq üçün, ilk növbədə, vergi ödəyicilərinin sayını artırmaq lazımdır.** Azaldılan vəsaitin əvəzlənməsi nəyin hesabına olmalıdır? Təbii ki, sistemli təhlil, bu isə peşəkar kadrların öhdəsinə düşür. Çoxlu misallar gətirmək olar. Bugün kifayət qədər informasiya bazası var. Biz çalışmalıyıq ki, bu imkanlardan istifadə edək.

Qlobal təfəkkür, lokal qərar üçün də vergi ödəyiciləri ilə düzgün münasibət, sağlam əlaqə qurulmalıdır. Bu kimi məsələləri daha diqqətlə öyrənməliyik ki, gələcəkdə Azərbaycanın vergi sistemində çalışan hər bir insan ölkəsinin inkişafına xidmət etsin. Bu yaxınlarda bir neçə ali məktəbin iqtisadiyyatla əlaqədar proqramları ilə tanış oldum. Nə qədər fərqlər var. Bu qədər fərq nəyə lazımdır? Deməli, biz iqtisadiyyatımızın tədrisində əhəmiyyətli dərəcədə müxtəlifliyə yol veririk. Kamil bir mütəxəssis yetişdirilməsinə ehtiyac var. Maliyyə resurslarının formalaşması və idarə edilməsində vergi ilə bilavasitə məşğul olan mütəxəssislərin də böyük rolu var.

Bir daha vurğulamaq istəyirəm ki, belə tədbirlərin keçirilməsi çox mühüm əhəmiyyət daşıyır. Cənab prezidentimizin də əsas arzusu böyük və zəngin potensiala malik olan Azərbaycandır, onun xalqının yaxşı yaşamasıdır. Bunun üçün də ölkənin maliyyə imkanları çox olmaldır.

Tədbirdə BDU-nun Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev, Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, professor Sakit Yaqubov, Azərbaycan Dövlət İdarəçilik Akademiyasının professoru Çingiz İsmayılov, BDU-nun kafedra müdiri, professor Kamil Səlimov, Azərbaycan Respublikasının Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin nümayəndəsi Rafiq Quliyev, Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi Əli Həsənov, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndəsi Cahangir Hacıyev və başqaları da çıxış edərək, son dövrlərdə vergi sisteminin təkmilləşdirilməsi ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində vergi sahəsində əldə olunan böyük uğurlardan, onun səmərəliliyinin daha da artırılmasından, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsindən, bu nailiyyətlərin əldə edilməsində vergi orqanlarında kadr potensialının gücləndirilməsinin mühüm əhəmiyyətindən danışdılar. Qeyd edildi ki, uşaqların, yeniyetmə və gənclərin vergi sahəsində biliklərinin artırılmasının xüsusi önəmi var və bu məqsədlə bir sıra zəruri tədbirlərin həyata keçirilməsinə ehtiyac duyulur.

Sonda Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov və Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə aktual mövzusu olan dəyirmi masanın təşkilində dəstək olan hər kəsə bir daha öz dərin təşəkkürünü bildirdi və dəyirmi masada irəli sürülən təkliflərin vergi sistemində aparılacaq islahatlarla bağlı hazırlanacaq təkliflərdə nəzərə alınmasının vacibliyini vurğuladılar.

Səhifəni hazırladı:
Mətanət HÜSEYNOVA

Dövlət müstəqilliyi ilə bağlı konfrans keçirilib

Oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə dövlət müstəqilliyinin 25 illiyinə həsr edilmiş konfrans keçirilib.

QHT rəhbərlərinin və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbir dövlət himninin səslənməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra Azərbaycanın dövlət müstəqilliyinin 25 illiyinə həsr olunmuş "Müstəqil Azərbaycan: 25 il quruculuq və inkişaf yolunda" adlı film nümayiş edilib.

Tədbiri giriş sözü ilə açan Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin icraçı direktoru Fərasət Qurbanov Azərbaycanın müstəqillik uğrunda keçdiyi çətin yoldan danışıb, 1990-cı illərin əvvəllərində müstəqilliyə əngəl törədəcək xeyli hadisələrin baş verməsinə baxmayaraq, Azərbaycan xalqının bu çətinliyin öhdəsindən gəldiyini qeyd edib: "Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkə inkişaf etdi, xarici ölkələrlə müqavilələr imzalandı. Onun səyi nəticəsində Azərbaycan dünyaya tanıdıldı. 2003-cü ildə Heydər Əliyevin siyasi kursunun davamçısı İlham Əliyev hakimiyyətə gəldikdən sonra ölkə sürətli inkişaf yoluna qədəm qoydu, islahatlar aparıldı. Artıq Azərbaycan dünyada güclü dövlətə çevrilib. Azərbaycan xalqı, vətəndaş cəmiyyəti Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Bu, sentyabrın 26-da keçirilən ümumxalq səsvermə-sində də sübuta yetirildi".

Daha sonra Milli Məclisin deputatı, "Paradiqma" İctimai-Siyasi Tədqiqatlar İctimai Birliyinin sədri Elman Nəsirov "Azərbaycan Respublikasının beynəlxalq siyasəti və təhlükəsizlik məsələləri", "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifov "Azərbaycan Respublikasının iqtisadi inkişafı", Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Müstəqil Azərbaycan və vətəndaş cəmiyyəti" mövzularında məruzələrlə çıxış ediblər.

MƏTANƏT

Azərbaycan şirkəti Bosniyada tenderə qatılacaq

Azərbaycanın "AzVirt" və Çinin "China Power" şirkətlərinin birgə yaratdığı konsorsium Bosniya və Herseqovinanın infrastruktur layihələrinin icrası məqsədi ilə keçirdiyi beynəlxalq tenderdə iştirak etmək niyyətindədir. Bunu açıqlamasında Azərbaycanın Bosniya və Herseqovinadakı müvəqqəti işlər vəkili İsmayıl Cəfərov deyib.



İ.Cəfərovun sözlərinə görə, adıçəkilən şirkətlər digər Balkan ölkələrində də birgə layihələr həyata keçirir: "AzVirt" şirkəti "China Power"lə Balkanlarda olan layihələrdə birgə iştirak etmək barədə müqavilə imzalayıb və hazırda onlar Serbiyada Belqrad dairəvi yolunun çəkilişini həyata keçirir. İndi Bosniyada "Corridor 5C" deyilən magistral yolunun tikilişi müzakirə edilir və onun ayrı-ayrı hissələri tenderə çıxarılacaq. Azərbaycan şirkəti də Çin şirkəti ilə birgə ora dəvət olunub. Bu layihələrin maliyyələşdirilməsi Çin bankları və bəzi Avropa maliyyə institutları tərəfindən həyata keçiriləcək. Razılığa əsasən, əgər "China Power" tenderə qatılarsa, o zaman "AzVirt" subpotratçı kimi işin bir hissəsini görəcək və yaxud əksinə".

Diplomat deyib ki, konsorsiumda birləşən şirkətlər "Corridor 5C" üzərində olan 4 əsas layihədə iştirakda maraqlıdır: "Corridor 5C" Monteneqro tərəfdən Xorvatiya tərəfə uzanacaq magistral yoldur. Ona yüksək sürətli Lasva-Travnik magistralı, "Prenj" tuneli, Mostar-Şimal və Mostar-Cənub adlanan iki motosiklet yolunun inşası layihəsi daxildir".

Bosniya və Herseqovina Nəqliyyat Nazirliyinin yaydığı məlumatda isə deyilir ki, konsorsiumun iştirak etmək istədiyi layihənin dəyəri 1 mlrd. avro (1,1 mlrd. ABŞ dolları) civarındadır.

Azərbaycan Texniki Universitetində "Nar" günü keçirildi

"Nar" fərqlənən tələbələr üçün xüsusi mükafat təsis etdi.

"Nar" özünün KSM strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Bir neçə ay öncə Azərbaycan Texniki Universitetində xüsusi avadanlıqlarla təchiz edilmiş "Nar" laboratoriyasının açılışını edən mobil operator AzTU ilə olan əlaqələrini müxtəlif istiqamətlərdə inkişaf etdirir.

13 oktyabr 2016-cı il tarixdə AzTU-da təşkil edilən "Nar" günü proqramı çərçivəsində tədris semestrinin sonunda ən yaxşı tələbələrin seçiləcəyi barədə elan verildi. Beləliklə, hər semestrdə ən yaxşı nəticələri göstərmiş 3 tələbə artıq "Nar" tərəfindən xüsusi hədiyyələrlə təltif ediləcək. İmtahan sessiyasında göstərdikləri nəticələrə uyğun olaraq, 1-ci, 2-ci və 3-cü yerləri tutmuş tələbələr mobil operatordan dəyərli hədiyyələr qazanacaqlar. Təhsil və maarifləndirmənin inkişafına xüsusi önəm verən "Nar"-ın bu təşəbbüsü tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verəcək.

Xatırladaq ki, Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası yaradılmış, tələbələr GSM sahəsi üzrə müxtəlif nəzəri biliklər və təcrübə əldə etmək fürsəti qazanmışlar. "Nar"-ın müasir telekommunikasiya avadanlığının quraşdırıldığı xüsusi laboratoriyada peşəkar texniki işçi heyəti tərəfindən tələbələr üçün təlimlər və seminarlar keçirilir. Proqram çərçivəsində praktiki biliklərini inkişaf etdirən bir qrup gənc ixtisaslı kadr kimi yetişmək üçün mobil operatorda ilk addımlarını atmışdır. Universitetdəki laboratoriyanın təchizatı və tələbələr üçün nəzərdə tutulmuş təcrübə proqramı "Nar"-ın gənclər və təhsilə yönəlmiş KSM strategiyası çərçivəsində həyata keçirilir.

"Nar" KSM strategiyası haqqında daha ətraflı məlumatı nar.az saytından öyrənmək olar.

SOCAR istiqrazlarına ikiqat tələb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən ölkə vətəndaşları və qurumları üçün 100 mln. ABŞ dolları məbləğində kütləvi buraxılmış korporativ istiqrazlara yaranmış tələbat mövcud təklifi 2 dəfədən çox üstələyib. SOCAR istiqrazlarının buraxılışı qarşılığında ümumilikdə 203,604 mln. dollarlıq sifariş toplanıb.

Bu barədə şirkətdən məlumat verilib.

Qeyd olunub ki, sentyabrın 20-dən sifariş toplanmasına başlanan 5 il müddətli, 3 aydan bir faiz ödənişli, 100 mln. dollar məbləğində buraxılan SOCAR istiqrazlarının sifariş toplama prosesi oktyabrın 10-da tamamlanıb. "ASAN Xidmət", "Azərbaycan Beynəlxalq Bankı", "Azər-Türk Bank", "Xalq Bank", "Kapital Bank", "Rabitəbank", "Az-Finance", "İnvest-Az", "PAŞA Kapital" və anderrayterliyi öhdəsinə götürən "PSG Capital"ın işbirliyi ilə toplanmış ön sifarişlərin yekun sifariş halına gəlməsindən sonra bölüşdürülməsi prosesi oktyabrın 12-də, yerləşdirilməsi isə oktyabrın 13-də gerçəkləşdiriləcək.

Oktyabrın 14-dək Maliyyə Bazarlarına Nəzarət Palatasının təsdiqləməsindən sonra oktyabrın 17-də ikinci bazar əməliyyatlarına start veriləcək.

Dəyəri 100 mln. dollar təşkil edən SOCAR istiqrazlarının buraxılışı qarşılığında ümumilikdə 203,604 mln. dollarlıq sifariş toplanıb. Bölüşdürmə əməliyyatında üstünlük emissiya prospektində yazıldığı kimi, fiziki şəxslərə (vətəndaşlara) veriləcək, sonra isə hüquqi şəxslərin tələbləri qarşılanacaq.

Yekun nəticələr oktyabrın 14-də dəqiqləşəcək. İnvestorların qarşılana bilinməyən tələbinin onların bank hesablarına geri qaytarılmasına başlanacaq və ən gec oktyabrın 18-də həmin proses yekunlaşdırılacaq.

SOCAR büdcəyə 1 milyard manatdan artıq vəsait köçürüb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən cari ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinə 1 mlyard 24 milyon 827 manat həcmində vəsait ödənilib.

SOCAR-ın yaydığı məlumata görə, bu ilin ilk 9 ayında büdcəyə ödənilən vəsaitin 119 milyon 443 min manatı sentyabr ayının payına düşür.

Xəbər verildiyi kimi, 2015-ci ilin yanvar-sentyabr aylarında SOCAR dövlət büdcəsinə 1 mlrd. 135 mln. manat vergi ödəmişdi. Beləliklə, 2016-cı ilin 9 ayı ərzində vergi ödənişlərinin həcmi 9,7% azalıb.

2015-ci ildə SOCAR dövlət büdcəsinə 1 mlrd. 480 mln. 195 min manat vergi ödəyib. SOCAR-ın 2016-cı il üçün dövlət büdcəsinə vergi ödənişləri üzrə plan 1 mlrd. 240 mln. manat səviyyəsində müəyyən edilib. Bundan əlavə, bu ilin sentyabr ayında SOCAR Dövlət Sosial Müdafiə Fonduna (DSMF) 12 milyon 816 min manat vəsait köçürüb ki, bu göstərici ötən ilin sentyabr ayı ilə müqayisədə 1 milyon 28 min manat və ya 8,7% çoxdur.

Ümumiyyətlə, 2016-cı ilin yanvar-sentyabr aylarında Şirkət tərəfindən DSMF-yə ödəniş 107 milyon 163 mln. manat təşkil edib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 2,94 mln. manat və ya 2,8% çoxdur.

Neft Fondunda pullar 7%-ə yaxın artıb

Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) 2016-cı ilin yanvar-sentyabr ayları üzrə gəlir və xərclərinə dair məlumat açıqlanıb.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində ARDNF-nin büdcə gəlirləri 6 milyard 618,6 milyon manat, büdcə xərcləri isə 3 milyard 823,1 milyon manat təşkil edib.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində ARDNF-nin neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 5 milyard 883,8 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışından 5 milyard 867 milyon manat, bonus ödənişləri 0,1 milyon manat və tranzit gəlirləri 13,4 milyon manat və akrhesabı ödənişlər 3,3 mln. manat təşkil edib.

Fondun vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 734,8 milyon manata bərabər olub.

Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı ARDNF-nin büdcədənkənar gəliri 2 milyard 612,3 milyon manat təşkil edib.

Hesabat dövrü ərzində, ARDNF-nin 2016-cı il büdcəsinin icrası çərçivəsində 3 260,0 mln. manat vəsait dövlət büdcəsinə transfert edilib. Qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 73,8 mln. manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 39,1 mln. manat, "Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin maliyyələşdirilməsinə ARDNF-dən 48,6 mln. manat vəsait ayrılıb. 20,8 mln. manat vəsait "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsinə yönəldilib. "Cənub Qaz Dəhlizi" layihəsi üzrə isə 241,9 mln. manat, "STAR" neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə isə 127 mln. manat vəsait ayrılıb. 2016-cı il ərzində ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri 11,9 mln. manat təşkil edib.

2016-cı il oktyabrın 1-nə Fondun aktivləri 2016-cı ilin əvvəlinə (33 milyard 574,1 milyon ABŞ dolları) nisbətən 6,7% artaraq 35 milyard 822,1 milyon ABŞ dollarına (Bu vəsaitin valyuta ifadəsində 33 milyard 949,6 milyon ABŞ dolları investisiya portfelinin, 1 milyard 872,5 milyon ABŞ dolları isə manat hesabının payına düşür) bərabər olub.

Manat əmanətləri üzrə faiz dərəcələrini artırıb

Daha çox gəlir əldə etmək istəyən müştərilər üçün AtaBank müştərilərə yenilənmiş şərtlərlə manat əmanət məhsullarını təklif edir. Dəyişikliklər 1 aydan 5 ilədək qoyulan bütün depozit növlərinə şamil olunur.

Hazırda milli valyuta üzrə fiziki şəxslərin əmanətlərinin maksimal faiz dərəcəsi faizlərin aylıq ödənildiyi təqdirdə illik 14% təşkil edir. Faiz gəlirləri müddətin sonunda ödənildiyi halda faiz dərəcəsi illik 15% təşkil edəcək. Hal-hazırda "AtaBank"-da "Universal", Yığım və VİP manat əmanət növləri mövcuddur.

Əmanətçilərə əmanət faizlərini aylıq, rüblük və müddətin sonunda əldə etmək imkanı verilir.

Eyni zamanda, müştərilərə aylıq faizləri banka gəlmədən əldə etmək üçün pulsuz VisaElectron və ya Mas-tercard Maestro kartı təqdim olunur.

Depozit hesabını bankın istənilən filial və şöbəsində pulsuz açdırmaq imkanı ilə yanaşı, müştərilər faiz dərəcələrinin artırılması ilə daha çox gəlir əldə edəcəklər.

Həmçinin, 30.07.2007-ci ildən Əmanətlərin Sığortalanması Fondunun üzvü olan "AtaBank" müştərilərə bildirir ki, "Əmanətlərin tam sığortalanması haqqında" Qanunun şərtlərinə uyğun olaraq, " AtaBank"-da yerləşdirilən əmanətlər məbləğindən asılı olmayaraq 3 il müddətinə tam sığortalanır.

İndi 4G sürətini Azercell-lə yaşamaq daha asan!

Yeni konsepsiyalı növbəti ofisin açılışı günü Azercell yeni 2 smartfon kampaniyasına birdən start verdi.

Sürətli mobil interneti hamı üçün əlçatan etməyi qarşısına məqsəd qoyan Azərbaycanın lider mobil operatoru Azercell Telekom "4G - indi burada!" layhəsi çərçivəsində abunəçilərini yeniliklərlə sevindirməyə davam edir. 11 oktyabr Z.Tağıyev 26A ünvanı, Fəvvarələr meydanında yerləşən Azercell-in ilk və ən sevilən Müştəri Xidmətlərindən biri olan ofisi yeni konsepsiya əsasında təmir edilərək yenidən istifadəyə verildi. İstər dizaynda istifadə olunan müasir yanaşma, istərsə də mobil telekoma aid yeniliklərlə detallı tanışlıq üçün öz rahatlığı ilə fərqlənən yeni konsepsiya artıq Azercell müştərilərinə yaxşı tanışdır. İlk belə ofis ötən il 28 May küçəsində yerləşən Azercell Ekspresdə istifadəyə verildi. Bu ofislərdə həm telefon danışığına görə ödəmə həyata keçirmək, müştəri xidmətlərindən istifadə etmək, həm də yeni telefon və ya nömrə almaq mümkündür.

Həmçinin, oktyabr ayının 11-dən bütün Azerell müştərilərinə inanılmaz fürsətlər və kampaniyalar təqdim olundu.

Beləliklə, yüksək sürətli və keyfiyyətli mobil internetdən istifadəni mümkün edən smartfonları və müasir cihazları əhaliyə əlverişli şərtlərlə təqdim etmək niyyətini əsas tutaraq, Azercell 2 kampaniyaya birdən start verdi Azercell "General Mobile Android One" telefonunu eksklüziv olaraq ilk dəfə yalnız öz abunəçilərinə təqdim edir. Azercell 4G şəbəkəsinin üstünlüyündən rahat yararlanmağa imkan verəcək yeni "General Mobile Android One" smartfonunun üzərində abunəçinin seçiminə əsasən internet paketi də təklif edir:

• General Mobile - Fakturalı xəttə keçən SimSim abunəçiləri 12 ay müddətində ayda cəmi 35AZN ödəməklə GM smartfonu+ aylıq 5GB internet əldə edəcək.

• LG Flex - Fakturalı xəttə keçən SimSim abunəçiləri 12 ay müddətində ayda cəmi 89 AZN ödəməklə LM smartfonu+ aylıq 5GB internet əldə edəcək.

Kampaniyaya qoşulmaq üçün SimSim və fakturalı xətt abunəçiləri Azercell Müştəri Xidmətləri, Ekspres Ofislərinə və diler mağazalarına müraciət edə bilərlər.

Qeyd edək ki, Azercell şirkəti sürətli mobil interneti hamı üçün əlçatan etmək məqsədi ilə dördüncü nəsil şəbəkəsinin əhatə dairəsini də əsaslı şəkildə genişləndirir. Təkcə 2016-cı ildə Bakıda və Abşeron yarımadasında Azercell 220 yeni LTE stansiyası quraşdırıb. Bununla da sürətli mobil internetə ən çox tələbatı olan Bakı və Abşeronun 4G ilə əhatə olunma səviyyəsi 79%-ə çatıb.

Son illər ərzində mobil internetin keyfiyyətini artıran, tariflərdə isə 55%-ə qədər endirim tətbiq edən Azercell, hamını öz 4G şəbəkəsində 100 Mb.s-ə qədər sürətli və keyfiyyətli internetdən faydalanmağa dəvət edir!

Bundan əlavə, xatırladaq ki, may ayından etibarən bütün Azercell abunəçiləri istənilən Azercell Müştəri Xidmətləri Mərkəzi və Azercell Ekspres ofislərinə yaxınlaşaraq 4G şəbəkəsini dəstəkləyən pulsuz sim kart əldə etmək imkanı qazanıblar.

Məlumat üçün bildirək ki, Azercell Azərbaycanda ən sürətli mobil internet təqdim edən ilk və ən böyük LTE (4G) şəbəkəsinə sahibdir.

9 ayda 21,1 milyard manatı xərclədik

2016-cı ilin yanvar-sentyabr aylarında istehlakçılara 21,1 milyard manatlıq və ya 2015-ci ilin eyni dövrü ilə müqayisədə 2,3 faiz çox məhsul satılmışdır.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə satışın dəyəri real ifadədə 3,1 faiz, qeyri-ərzaq məhsulları üzrə isə 0,9 faiz artmışdır.

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 49,8 faizi ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 17,6 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,6 faizi elektrik malları və mebelin, 5,7 faizi avtomobil yanacağının, 1,4 faizi əczaçılıq və tibbi malların, 0,8 faizi kompyuterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,1 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunmuşdur.

İnflyasiya 11%-dən çoxdur

2016-cı ilin yanvar-sentyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2015-ci ilin eyni dövrünə nisbətən 11,2 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 12,7 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 15,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 5,2 faiz bahalaşmışdır. Bu barədə Dövlət Statistika Komitəsinin yaydığı məlumatda deyilir.

2016-cı ilin sentyabr ayında avqust ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 2,3 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 4,0 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 1,6 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,6 faiz bahalaşmışdır.

Xatırladaq ki, 2016-cı ilin avqust ayında iyul ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,5 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 0,6 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 0,5 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,4 faiz bahalaşmışdı.

Şirkətlərin 63,3 faizi Bakıda yaradılıb

2016-cı ilin yanvar-sentyabr aylarında ölkədə 6088 müəssisə və təşkilat (onların nümayəndəlik və filialları) yaradılmış və onların sayı keçən ilin müvafiq dövrünə nisbətən 33,3 faiz artmışdır.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, yeni müəssisə və təşkilatların 63,3 faizi Bakıda, 11,2 faizi Aran, 7,6 faizi Abşeron, 4,8 faizi Lənkəran, 4,6 faizi Gəncə-Qazax, 3,3 faizi Quba-Xaçmaz iqtisadi rayonlarında, qalanları isə digər bölgələrdə qeydiyyatdan keçmişdir.

Bundan əlavə, 2016-cı ilin yanvar-sentyabr aylarında fərdi sahibkarlıqla məşğul olmaq üçün ölkənin vergi orqanlarında 83094 fiziki şəxs qeydiyyatdan keçmiş və onların sayı keçən ilin müvafiq dövrünə nisbətən 56,8 faiz artmışdır.

Fərdi sahibkarlar daha çox Bakıda, Aran, Gəncə-Qazax, Lənkəran, Şəki-Zaqatala, Abşeron və Quba-Xaçmaz iqtisadi rayonlarında qeydiyyata alınmışdır.

PAŞA Sığorta Zaqatalada!

Daima müştəri məmnuniyyətini və rahatlığını artırmaqda səylərini əsirgəməyən PAŞA Sığorta şirkəti oktyabr ayının 7-də Zaqatala rayonunda yeni nümayəndəliyini müştərilərin xidmətinə verib.

Şirkətdən daxil olmuş məlumata görə, təntənəli açılış mərasimində PAŞA Sığorta ASC-nin departament və şöbə rəhbərləri, həmçinin yerli icra hakimiyyətinin rəhbər və məsul işçiləri iştirak edib.

Müasir tələblərə tam cavab verən yeni nümayəndəlik Zaqatala rayonu, Faiq Əmirov küçəsi 48 ünvanında fəaliyyət göstərəcəkdir.

Nümayəndəlik şəbəkəsinin genişlənməsi PAŞA Sığorta şirkətinin əsas inkişaf prioritetləri sırasındadır, əsas məqsəd isə tək Bakı şəhərində deyil, həmçinin regionlarda yaşayan əhalinin bütün sığorta xidmətlərindən rahat şəkildə faydalanmasını, baş verən sığorta hadisələri zamanı peşəkar heyətin dəstəyi ilə müştərilərə operativ xidmətin göstərilməsini təmin etməkdir.

Azərbaycan Hollandiyanın qabaqcıl aqrar modellərini öyrənəcək

11 oktyabr 2016 tarixində Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası (AMTA) və Azərbaycan – Hollandiya İşgüzar Mərkəz (Business Hub) arasında Anlaşma Memorandumu imzalanıb.

AMTA-dan daxil olmuş məlumata görə, Memorandumun məqsədi elmi əsaslara dayanan ölkədə aqrar sektorun inkişafı, birgə layihələr və proqramların həyata keçirilməsidir. Bu əməkdaşlıq çərçivəsində aşağıdakı istiqamətlər üzrə işlərin görülməsi planlaşdırılır:

1) Hollandiyanın qabaqcıl aqrar inkişaf modellərinin öyrənilməsi və Azərbaycanda tətbiqi istiqamətlərinin araşdırılması;

2) Azərbaycan və Hollandiya işgüzar və sahibkarlararası əlaqələrin genişləndirilməsi və Azərbaycana investisiyaların cəlb olunması;

3) Hollandiyanın kənd təsərrüfatının inkişafında koperativ model təcrübəsinin öyrənilməsi və Azərbaycanda analoji ilk kooporativin yaradılması.

Tədbirdə sözügedən təşkilatların rəhbərlikləri ilə yanaşı, Hollandiyanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri cənab Onno Kervers, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) və meyvə-tərəvəz sektorundan qabaqcıl istehsalçılar iştirak edib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan-Hollandiya İşgüzar Mərkəzinin (Business Hub) ölkə koordinatoru Tariyel Mirzoyev tədbir iştirakçılarını salamlayaraq, qonaqlara mərkəzin yaranması və məqsədləri haqqında qısa məlumat verib, AMTA ilə bağlanacaq bu anlaşma memorandumunun ölkənin aqrar sektoru inkişafına öz töhfəsini verəcəyini qeyd edib. Daha sonra Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının (AMTA sədri Başir Quliyev çıxışında ölkədə son illər aparılan uğurlu məqsədyönlü aqrar siyasətdən danışaraq, bu islahatların yerli məhsul istehsalçı və ixracatçılarına əlavə bir güc və həvəs yaratdığını qeyd etmişdir.

Memorandum ilə bağlı cənab Quliyev bu təşəbbüsün yaranma səbəblərini açıqlayaraq, Hollandiyanın tətbiq etdiyi dünyaca məşhur aqrar inkişaf modeli ilə yaxından tanış olduğunu bildirərək, hal-hazırda Azərbaycan kənd təsərrüfatı sektoru üçün bunun əhəmiyyətdən danışıb. Məhz bu kimi praktiki təcrübələrin öyrənilməsinin aparılan işlərin, xüsusən yerli meyvə-tərəvəz sektorunun istehsal və ixrac potensialının daha da artmasına gətirib çıxaracağını bildirmişdir.

Tədbirdə Hollandiyanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Cənab Onno Kervers tədbirə dəvətə görə təşəkkür edərək, sözügedən memorandumun artıq real və praktiki işgüzar əlaqələr üçün ən yaxşı nümunə olduğunu bildirib. Cənab Kervers qonaqlara Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri Heydər Əsədovun 2 həftə sonra Hollandiyaya gözlənilən səfəri və bu anlaşma memorandumunun ölkələrimiz arasında işgüzar mühitin genişlənməsinə müsbət töhfə verəcəyinə inandığını da vurğulayıb.

“Nar” AICT-2016 beynəlxalq konfransına dəstək verdi

Mobil operator “İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi” mövzusundakı elmi konfransda təmsil olundu.

12-14 oktyabr 2016-cı il tarixdə texnika sahəsində çalışan mütəxəssislərin beynəlxalq qeyri-kommersiya assosiasiyası olan və radioelektronika, elektrotexnika, hesablama sistemləri və şəbəkələri standartlarının hazırlanması sahəsi üzrə bir dünya lideri hesab edilən Elektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun (Institute of Electrical and Electronics Engineers – IEEE) “İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi” (Application of Information and Communication Technologies – AICT-2016) mövzusundakı 10-cu beynəlxalq konfransı Azərbaycanda keçirildi.

Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə təşkil edilən üçgünlük elmi konfrans Qafqaz Universitetinin tədris binasında, Bakı Dövlət Universitetində və Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunda keçirildi.

İnformasiya texnologiyalarının inkişafı və innovasiyalara xüsusi önəm verən “Nar” bu mötəbər tədbirə dəstək verərək, forumun təşkilatçıları arasında yer aldı. Konfransın açılış mərasimində çıxış edən “Azerfon” şirkətinin texniki və informasiya texnologiyaları üzrə baş müdiri Xəyyam Həsənli informasiya texnologiyaları sahəsindəki yeni trendlərin mobil rabitədə tətbiqi və innovasiyalara meyil edən “Nar” operatorunun bu sahədəki böyük və uğurlu təcrübəsindən söhbət açdı. Çoxsaylı yerli və xarici qonaqların iştirak etdiyi tədbir dəyərli elmi müzakirələr və geniş təcrübə mübadiləsi formatında keçirildi.

Bakcell beynəlxalq zənglərin qiymətini 16 qəpiyə endirdi

Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi Bakcell şirkəti öz abunəçiləri üçün dəqiqəsi 2 dəfə ucuz qiymətə istənilən istiqamətdə beynəlxalq zənglər etməyə imkan verən yeni kampaniyaya start verdiyini elan edir.

Yeni kampaniyanın şərtlərinə görə, indi Bakcell abunəçiləri həftəsonu, bayram, qeyri-iş günləri və qeyri-pik saatlarda (00:00-dan – 08:00-dək) başqa ölkələrə etdikləri beynəlxalq zənglərin hər dəqiqəsinə görə cəmi 0.16 AZN ödəyəcəklər. Pik saatlarında beynəlxalq zənglərin qiyməti isə 1 dəqiqəsi 0.32 AZN hesabı ilə dəyişməz olaraq qalır.

Bu yeni tarif planını təqdim etməklə, Bakcell bazarda olduqca sərfəli və müsbət beynəlxalq rabitə təcrübəsini təklif edir.

“Bu yeni təklif ilə Bakcell öz abunəçilərinin dünyanın müxtəlif guşələrində yaşayan dostları və ailə üzvləri ilə əlaqə yarada bilməsini daha da asanlaşdırır. İnanırıq ki, qiymətin endirilməsi insanların təyinat ölkəsindən asılı olmayaraq, daha tez-tez beynəlxalq zənglər etməsi və istədikləri qədər danışması üçün daha bir əsas yaradacaq”,- deyə Bakcell şirkətinin baş marketinq və satış direktoru cənab Fedja Hadziç bildirib.

Bakcell öz abunəçiləri üçün sərfəli tariflər təklif etməkdə davam edəcək.

ADİU-nun rektoru BVF və DB-nin illik toplantısında iştirak edib

UNEC (Azərbaycan Dövlət İqtisad Universiteti) rektoru, professor Ədalət Muradov ABŞ-ın paytaxtı Vaşinqtonda keçirilən Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı (DB) Qrupunun illik toplantısında iştirak edib. Ə.Muradov toplantıya hər iki təşkilatın birgə dəvəti ilə qatılıb.

Xüsusi proqrama uyğun olaraq, Serbiya, Bosniya və Herseqovina, El-salvador, İordaniya, Anqola, Kot d`İvuar, Myanmar, İndoneziya, Kolumbiya və Azərbaycandan dəvət olunan akademik dairənin nümayəndələri BVF-nin icraçı direktoru K.Laqard (Christine Lagarde) və Dünya Bankı Qrupunun direktoru J.Kimin (Jim Yong Kim) iştirakı ilə bir sıra müzakirələrə qatılıblar.

Oktyabrın 7-də keçirilən BVF və DB-nin illik toplantısında Ümumdünya Ticarət Təşkilatının baş katibi R.Azevedo bildirib ki, qlobal iqtisadi artım tempinin azalması ilə bərabər, ticarətdə maneələr artıb, proteksionizm güclənib. Bununla yanaşı, inkişaf etmiş ölkələrdə iqtisadi artım qeyri-barəbər bölünüb. O bildirib ki, ilin sonuna qədər imzalanacağı gözlənilən Ticarətə Yardım Sazişi (Trade Facilitation Agreement) inkişafda olan bir sıra ölkələrin ticarət xərclərini 15 faizə qədər azaldacaq.

BVF-nin icraçı direktoru K.Laqard, BVF yaradıcılarından olan C.Keynsden (John Maynard Keynes) “bir çox hallarda çağırış yeni ideyaların inkişafından daha çox köhnə ideyalardan uzaqlaşmaqdan ibarətdir” sitatını misal gətirərək, əsas prioritet kimi “dəyişən BVF və dəyişən dünya”, müasir texnologiyaların vacibliyindən danışıb. Rəqəmsal əsrə doğru inkişafı, inklüziv iqtisadi artımı təmin edən siyasəti və beynəlxalq əməkdaşlığı ön plana çəkib.

J.Kim Dünya Bankının əsas məqsədinin dünyada mütləq yoxsulluğun aradan qaldırılması olduğunu vurğulayaraq, inklüziv, dayanıqlı və daha yüksək artım tempinin təmin edilməsi üçün daha böyük əməkdaşlığın yaradılmasının vacibliyini qeyd edib. Eləcə də, infrastruktur layihələrinin reallaşdırılmasının davam etdirilməsinin əhəmiyyətini bildirib.

Səfər çərçivəsində bir çox müzakirələrdə iştirak edən UNEC rektoru BVF-nin Azərbaycan üzrə missiya rəhbəri Məhəmməd Əl Qorçi ilə də görüşüb. Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən iqtisadi islahatlar haqqında ətraflı məlumat verilib. M.Qorçi Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatları yüksək qiymətləndirib. Müzakirələr zamanı BVF-nin elektron kitabxanasına sərbəst çıxış imkanlarının yaradılması, BVF ilə UNEC-in birgə tədqiqatlar aparması, konfrans, seminar və dəyirmi masaların təşkili təklif edilib.

Keyfiyyətin idarəedilməsi üzrə təlim keçiriləcək

Noyabrın 7-də ali məktəb tələbələri üçün “Biznes fəaliyyətində keyfiyyətin idarəedilməsi” mövzusunda təlim keçiriləcək. “Excelsior Hotel & Spa Baku”otelinin təşkilatçılığı ilə keçirilən təlimi “AtaHolding” Şirkətlər Qrupunun müvafiq bölmələrinin mütəxəssisləri: Keyfiyyət şöbəsinin rəisi Elməddin Hüseynov və “Excelsior Hotel & Spa Baku” otelinin nümayəndəsi Kamran Rzayev aparacaq.

Təlim tələbələrə biznesin bu mühüm sahəsində yeni biliklər əldə etməyə imkan verəcək. Çünki, məlum olduğu kimi, keyfiyyətli xidmətlər hər bir şirkətin rəqabət qabiliyyətliliyinin təminatıdır. Təlimdə dayanıqlı inkişaf, rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, keyfiyyətin idarəedilməsi sisteminin qurulması və xidmətlərin keyfiyyəti üzrə personalın siyasəti ilə bağlı məsələlərə toxunulacaq.

Təlimdə iştirak etmək arzusunda olan tələbələr ünvanına müraciət edə bilər. İştirakçıların qeydiyyatı 28.10.2016-cı ilə qədərdir.

PAŞA Həyat” müştəri yönümlü yeni tərtibatlı saytını istifadəyə verib

Azərbaycanın sığorta bazarının ən iri şirkəti olan “PAŞA Həyat” rəsmi veb saytını (www.pasha-life.az) tam yeni dizaynda təqdim edib.

Şirkətin ictimaiyyətlə əlaqələr xidmətinin verdiyi məlumata görə, yeni tərtibatda hazırlanmış sayt müştəri yönümlü olmaqla əvvəlki versiyadan bir çox üstünlükləri ilə fərqlənir.

Belə ki, görülmüş işlər nəticəsində saytın yeni versiyasına bir sıra əlavələr edilib. Saytda hüquqi və fiziki şəxslər üçün şirkətin fərdi və korporativ sığorta məhsulları haqqında məlumatlar, həmçinin müştərilərin dəyərli vaxtını düşünərək onlar üçün elektron xidmət bölməsi, sığorta haqqı məbləğinin onlayn rejimdə ödənilməsi imkanı, fərdi və korporativ sığorta məhsulları haqqında dərhal məlumat əldə etmək məqsədi ilə xüsusi whatsapp mesaj proqramı da tətbiq edilib.

Bütün bunlarla yanaşı, saytda fərdi və korporativ müştərilər üçün “şəxsi kabinet” bölməsi də yaradılıb. Həmin bölmədə müştərilər öz sığorta müqavilələrinin müddətinə, müqavilə üzrə ödəyəcəyi sığorta haqqı məbləğinin həcminə, eləcə də müqavilə müddətinin sonunda nəzərdə tutulmuş alacağı vəsaitə nəzarət etmək imkanı da əldə edəcək.

Qeyd edək ki, “PAŞA Həyat”ın yeni saytı ilə yanaşı, yeni bloqu (blog.pasha.life) da istifadəyə verilib. Bloqda həyat sığorta ilə bağlı maraqlı, maarifləndirici yazılar, bu sfera ilə bağlı videoçarxlar, həyat sığortasının vacibliyini təbliğ edən məqalələr və digər zəruri məlumatlar yerləşdirilib.

“PAŞA Həyat” 2011-ci ilin fevral ayından fəaliyyət göstərir. Cari ilin oktyabr ayının 1-nə şirkətin nizamnamə kapitalının həcmi 40,250 milyon manat təşkil edir.

PAŞA Bank beynəlxalq mikromaliyyə konfransının baş sponsoru oldu

6-7 oktyabr 2016-ci il tarixində Bakıda “Üfüqdə yeni ımkanlar: çətinlikləri perspektivlərə çevirək” mövzusunda beynəlxalq konfrans keçirilib. Ölkənin ən böyük banklarından biri olan PAŞA Bank tədbirin baş sponsoru qismində çıxış edib.

Tədbir iştirakçıları Azərbaycan mikromaliyyə bazarında sağlam kreditləşmə və məsuliyyətli borclanma, uzunmüddətli qənaət və investisiyalar üçün maliyyə savadlılığı, kiçik fermerlərin ehtiyaclarını qarşılamaq üçün innovativ kənd təsərrüfatı vasitələrinin tətbiqi, maliyyə təşkilatlarında qiymət siyasətinin optimallaşdırılması və s. məsələləri müzakirə ediblər.

Konfransın spikeri qismində çıxış edən PAŞA Bankın Baş kommersiya direktoru Melih Mengü öz nitqində qeyd etmişdir ki, Bank korporativ müştərilər və özəl bankçılıq seqmentlərində geniş maliyyə xidmətləri göstərən, şəffaf biznes prinsiplərinə əməl edən aparıcı banklardan biridir.

“Eyni prinsiplər əsasında PAŞA Bank mikromaliyyə təşkilatları ilə əməkdaşlıq edir və son illər bu əməkdaşlıq daha da möhkəmlənməkdədir. Nəticədə, mikromaliyyə sahəsinə ayrılmış maliyyə vəsaitinin həcmi 70 milyon manat təşkil etmişdir. Gələcəkdə də fəaliyyəti şəffaf olan, kredit portfelinin idarə edilməsinin monitorinqi və risklərin idarə edilməsi praktikasına malik olan mikromaliyyə təşkilatlarının maliyyələşdirilməsini həyata keçirməyə hazırıq”, - deyə M.Mengü yekunlaşdırmışdır.

Qeyd edək ki, Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən (AMFA) həyata keçirilən konfransda bu il Türkiyə, ABŞ, Almaniya, Rusiya, Qazaxıstan, Ukrayna, Bolqarıstan, İtaliya və s. ölkələrdən bir sıra beynəlxalq və yerli yatırım şirkətlərinin və xidmət təminatçılarının, mikromaliyyə və ixtisaslaşmış maliyyə ekspertləri olmaqla 130 yaxın nümayəndə iştirak edib.